QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Kəngərliyə həyat qayıdır!

Prezident İlham Əliyev: "Bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir"

№ 083 (7251)

15 may 2025-ci il.
Qiyməti 60 qəpik

Ukrayna-Rusiya danışıqları: Türkiyə hakimdir!

Sadəcə dörd hərf - AİLƏ

Gələcəkdəki təhlükə: SÜNİ İNTELLEKT

İqlim dəyişikliyində insan izi

Magistraturaya qəbul üçün nə qədər keçid balı tələb olunur?

Paşinyan Putinin qoltuğuna sığınır - Moskvadan "xüsusi tapşırıqla" qayıdıb...

Kəngərliyə həyat qayıdır!

Prezident İlham Əliyev: "Bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir"

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad olunan, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Ağdam da abadlıq-quruculuq meydanına çevrilib.

Ağdam işğaldan azad olunaraq yeni tarixi dövrünə qədəm qoydu. Qədim insanların yaşayış məskənlərindən olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olub. 1993-cü ilin iyul ayının 23-də Ağdamın işğalı tarixini artıq 20 noyabr 2020-ci ili qələbə tarixi əvəzlədi. Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda dövlət bayrağımız dalğalandı. Bundan qürurlu, şərəfli nə ola bilər? İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı və 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi.

”UZUN FASİLƏDƏN SONRA DOĞMA DƏDƏ-BABA TORPAĞINDA YAŞAMAQ, ƏLBƏTTƏ Kİ, BÖYÜK XOŞBƏXTLİKDİR”

Biz artıq Ağdamda həyata keçirilən abadlıq-quruculuq işlərindən fəxarətlə danışırıq. Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir. Ağdama əzəli sakinlər qayıdır. Ağdamın Kəngərli kəndində yeni həyat başladı. ”Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşüb zamanı bildirib. Dövlət başçımız bildirib ki, siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız: ”Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır”.

Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır.

”BÜTÜN TORPAQLARDA ERMƏNİSTAN DÖVLƏTİ TƏRƏFİNDƏN MƏQSƏDYÖNLÜ SİYASƏT APARILIRDI Kİ, HEÇ VAXT AZƏRBAYCANLILAR BU BÖLGƏYƏ QAYITMASINLAR”

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, mənfur düşmən bütün bu bölgəni viran qoymuşdu: ”Ağdam rayonunda bir dənə də salamat bina qalmamışdır. Şəhər, bütün kəndlər tamamilə yerlə-yeksan edilmişdir. Təkcə Ağdamda yox, demək olar ki, o vaxt işğal altında olan bütün torpaqlarda Ermənistan dövləti tərəfindən məqsədyönlü siyasət aparılırdı ki, heç vaxt azərbaycanlılar bu bölgəyə qayıtmasınlar. Onlar istəyirdilər bu torpaqları əbədi işğal altında saxlasınlar. Onlara mənəvi və maddi dəstək verən bəzi ölkələr də onlarla həmrəy idi. Amma onlar bir şeyi unudurdular ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan vətəndaşları heç vaxt öz doğma torpaqlarını unutmayacaq və Azərbaycan dövləti ayağa qalxacaq, güc toplayacaq və düşməni öz torpağından qovacaq. Bunu onlar hesablaya bilməmişdilər”.

Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə ”yaşıl enerji” zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır.

Ardı Səh. 3

Kəngərliyə həyat qayıdır!

Prezident İlham Əliyev: "Bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir"

Əvvəli Səh. 2

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. "Köçkünlər ən çətin şəraitdə yaşayıblar. Siz bilirsiniz ki, işğal dövründə köçkünlərlə mənim çoxsaylı görüşlərim olub, həm çadır şəhərciklərində, - onlara söz vermişdim ki, birinci prezidentlik dövrümdə bir dənə də çadır şəhərciyi qalmayacaq və artıq 2007-ci ildə bir dənə də qalmamışdı, - həm də yeni salınmış qəsəbələrdə, qəsəbələrin açılışında. Biz 300 minə yaxın ovaxtkı köçkünü gözəl evlərlə təmin etmişdik.

O görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, torpaqlar azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq", - deyə Prezident diqqətə çatdırıb. Bəli artıq real həyat hər şeyi deyir. Görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir. "Bütün bu əzablı illər arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır", - deyən Prezident bildirib ki, kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir və artıq 292 ev hazırdır. Evlər iki, üç, dörd və beşotaqlıdır. İkinci mərhələdə daha çox

evlər tikiləcək. Birinci mərhələ üzrə buraya 1279 nəfərin köçürülməsi planlaşdırılır.

Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Burada hər cür şərait var. Dövlət başçımızın bildirdiyi kimi, "Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi - hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni, həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik".

Kəngərli kəndi bərpa edilən sayca 14-cü yaşayış məntəqəsidir.

"MUĞAM MƏRKƏZİNİ AĞDAMDA İLK LAYİHƏLƏRDƏN BİRİ KİMİ İNŞA ETMƏYİMİZ BİZİM MƏNƏVİ KÖKLƏRƏ BAĞLI OLDUĞUMUZU GÖSTƏRİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərlərinin nəticəsi olaraq, burada yeni müəssisələrin təməllərinin qoyulur və açılışlar edilir. Artıq qeyd etdiyimiz kimi, Ağdam rayonunun Kəngərli kəndi öz sakinlərini qoynuna aldı. Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Ağdam Sənaye Parkında müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun, Ağdam Sənaye Parkında Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, Ağdam Sənaye Parkında Dam örtükləri istehsalı zavodunun açılışları vəs görülən işlər sırasındadır. "Ağdam şəhəri də artıq ərsəyə gəlir. Bu gün səhər Ağdam vağzal kompleksinin açılışını etdim", - deyən Prezident bu tədbirdən sonra Ağdam Muğam Mərkəzinin açılışını edib. "Muğam Mərkəzini Ağdamda ilk layihələrdən biri kimi inşa etməyimiz bizim mənəvi köklərə bağlı olduğumuzu göstərir. Yəni, bizi millət kimi, xalq kimi saxlayan bizim musiqimiz, dilimiz və əyilməz ruhumuz olub", - dövlət başçımız bildirib.

Qeyd edək ki, Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var.

Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

Bu gün isə Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar. "Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq", - deyə Prezident bildirib.

Zümrüd BAYRAMOVA

Dünya hadisələrində BRİTANİYANIN GİZLİ ROLU

Dünya miqyasında, qlobal müstəvidə baş verən hadisələrə hansısa təsirlərin olduğu qətiyyən təkzib edilmir. Tarixi faktlar sübut edir ki, bütün dövrlərdə bir çox məsələlərə müdaxilələr sonda öz təsirini göstərib və nəticə də bundan asılı olub. Halhazırda da belə faktlar az deyil və bu faktlar kifayət qədər araşdırılaraq, hələ də təsirlərin olduğu, hansısa prosesdə həmin təsirlərin rolunun mövcudluğu etiraf edilir. Dövrümüzdə cərəyan edən dünya hadisələrində, qlobal müstəvidə baş verən proseslərdə Britaniyanın gizli rolunun olduğu diqqəti cəlb edir.

Avropada liderlik mövqeyini möhkəmləndirmək niyyəti qətiyyən təkzib edilə bilməz

Rusiya Xarici Kəşfiyyat Xidməti məhz Ukrayna münaqişəsində əsas "dağıdıcı" rolu Böyük Britaniyanın oynadığını təsdiq edən hesabat yayıb. Hesabatda həmçinin qeyd olunub ki, Avropa İttifaqı ilə Amerika Birləşmiş Ştatları arasında mövcud ixtilaf özü də məhz Böyük Britaniyanın siyasi intriqaları ucbatından baş verib. Daha dəqiq desək, məhz Al ilə ABŞ arasında olanlar, xüsusən də avropalıların özləri üçün arzuolunmaz vəziyyət məhz Böyük Briyaniyaya görədir və elə bil ki, bu ölkə ancaq münasibətlərin pozulmasında maraqlıdır. Hesabatda eyni zamanda qeyd olunur ki, London məhz sülh danışıqlarına hər cür maneçilik edir.

Sözsüz ki, politoloqları maraqlandıran bəzi məqamlar çox məntiqi suallar doğurur. Həqiqətən də maraqlıdır ki, görəsən Britaniya Ukraynanı dəstəkləməklə nəyə nail olur? Münaqişənin həll olunması gözlənildiyi bir vaxtda belə bir dəstək nəyə lazımdır? Ələlxüsus da ingilislərin özlərinin nəyinə lazımdır bu dəstək? Hazırda Amerika münaqişənin həllinə çalışdığı, müharibənin dayandırılmasında maraqlı olduğu bir vaxtda ukraynalıları dəstəkləməklə, münaqişənin həllinə mane olmaq, müharibəni uzatmaq və bununla da ABŞ liderinin planlarını pozmaq, beləliklə də münasibətlərə xələl gətirmək nə üçündür? Ümumiyyətlə, ingilislər nə üçün strateji müttəfiqləri olan amerikalılarla münasibətləri pisləşdirdilər? İngilislər Rusiyaya qarşı hansı xüsusi əməliyyatlar keçirirlər? Bu xüsusi ənəliyyatlarda məqsəd nədir? Bəs Ukraynanı öz yeni müstəmləkəsinə çevirməyə necə və nəyə görə çalışırlar? Bu suallar əlbəttə ki, olduqca maraqlıdır və məntiqi cavabı da olmalıdır. Təbii ki, var və belə məlum olur ki, ingilislər Avropada özlərinin liderlik mövqelərini möhkəmləndirmək niyyətindədirlər. Bunu araşdırmalar da sübut edir və məhz Rusiya Xarici Kəşfiyyat Xidmətinin hesabatında qeyd olunanlar məsələnin nə yerdə olduğu ilə bağlı doğru nəticəyə gəlmək üçün kifayət edir.

İngiltərənin də, Fransanın da hədəfində Odessa limanlarıdır və Vaşinqtonun sülh prosesindən yaxa qurtarmaq üçün sadəcə şou qurulur

Diqqətə çatdıraq ki, aprelin 15-də NATO-nun baş katibi Mark Rutte və Vladimir Zelenski Odessadakı xəstəxanada yaralılara baş çəkiblər. Hətta səfərin əsas məqsədi brifinqdə aydın olub. Xüsusən də Alyansın baş katibinə ünvanlanan sual və onun bu suala verdiyi cavab bir çox məqamlara aydınlıq gətirilməsi üçün kifayət edir. "Ölkələrin donanmasının Qara dənizdə yerləşdirilməsi ilə bağlı hər hansı məlumat varmı?", deyə brifinqdə NATO-nun baş katibinə verilən suala onun cavabı həqiqətən də diqqətə layiqdir. Sözsüz ki, Alyansın baş katibinin verdiyi cavabın müzakirələrə səbəb olması da təsadüfi deyil. "Biz prezident Trampın Ukraynadakı yanğının dayandırılması ilə bağlı təşəbbüslərini yaxından izləyirik və mən çox şadam ki, Fransa və Britaniya bu təşəbbüsü öz üzərinə götürüb", deyə Mark Ruttenin cavab verib və onun cavabı həqiqətən də bəzi məqamlara aydınlıq gətirilməsi üçün yetərlidir.

Bildiyimiz kimi, Qara dənizdə gəmiçiliklə bağlı Paris və London ilə Kiyev danışıqlar aparır. Məsələ burasındadır ki, bu ölkələrin həmin sulara çıxışı yoxdur. Amma görünən odur ki, çıxışları olmasa da kifayət qədər ambisiyaları var. Ambisiyaları da məhz Odessanın liman infrastrukturunu bölmək, bölüşdürməkdir. Sadəcə, aydın olur ki, hər iki ölkənin, xüsusən də Britaniyanın qarşısını kəsən yeganə ölkə Amerikadır. Görünən odur ki, Vaşinqtonun sülh prosesində iştirakından "qurtulmaq" üçün sadəcə şou qurulur.

Ortada məhz ingilislərin olduğunu təkcə Tramp yox, elə bütün dünya artıq son dərəcə aydın şəkildə bilir

"Ukrayna qanuni olaraq Krımı Rusiya ərazisi kimi tanımır. Danışacaq bir şey yoxdur. Bu, bizim Konstitusiyadan kənardır. Bu, bizim ərazimizdir, Ukrayna xalqının ərazisidir", deyə Zelenskinin bildirdikləri heç də yenilik deyil və bütün dünya ictimaiyyəti bu ifadələri yetərincə eşidib. Amma indi tamamilə başqa gözləntilərin olduğu bir zamanda bu fikirlər yox, münaqişənin həllinə zəmin yaradan ifadələri eşitmək hər halda, yerinə düşərdi. Ukrayna liderinin fikirləri, qeyd olunan bəyanatı beynəlxalq nəşrlərin də qətiyyən diqqətindən yayınmayıb. Ona görə ki, Krımın Rusiyanın bir hissəsi kimi hüquqi tanınması məsələsinin məhz Amerikanın sülh yolu ilə nizamlanma planında əsas şərt olduğunu Zelenskinin özünün də bildiyini bütün dünya çoxdan qəbul etmişdi və indi bu ifadələr sadəcə olaraq, pozucu təsir bağışladı və Ukrayna prezidenti də məhz pozucu bir məqamı vurğuladı.

Bəli, heç Trampın reaksiyası da özünü çox gözlətmədi. "Düşünürəm ki, Rusiya hazırdır. Düşünürəm ki, bizim Rusiya ilə anlaşmamız artıq var. Biz Zelenski ilə razılığa gəlməliyik. Onunla daha asan olacağını düşünürdüm, amma indiyə qədər bu, mürəkkəbdir", deyə ABŞ prezidenti Donald Tramp bildirib. Bu isə o deməkdir ki, Tramp məhz Ukrayna lideri ilə heç də razılıq əldə etmədiyini açıq şəkildə bəyan edir və mürəkkəbdir, deməklə də, ortada, arada kimlərinsə olduğuna ehyam vurur. Məsələ burasındadır ki, ortada məhz ingilislərin olduğunu təkcə Tramp yox, elə bütün dünya artıq son dərəcə aydın şəkildə bilir.

London təlimçiləri Ukrayna Silahlı Qüvvələrinin əsgərlərini hazırlayırlar və bunu gizlətmirlər

Böyük Britaniyadakı hərbi bazanın görüntüləri təsdiq edir ki, təlimatçılar Hərbi Hava Qüvvələrinin əsgərlərinə döyüş əməliyyatları və yaralıların təxliyəsi qaydalarını öyrədirlər. Başqa bir poliqonda təxminən 10 briqadada 50 mindən çox döyüşçünün artıq adanın hər tərəfinə səpələnmiş düşərgələr şəbəkəsindən keçdiyi görüntülərdə öz əksini tapır. "Bizim dəstə rəhbərləri və serjantlar üçün beş həftəlik kursumuz var", deyə Ukrayna Silahlı Qüvvələri üçün təlim kursunu idarə edən Britaniya ordusunun mayoru bildirir. Deməli, hərbi məqsədlər üçün kurs keçildiyi heç nəyi gizlətmədən açıq şəkildə etiraf da edilir. Görünən də odur ki, xüsusi hərbi əməliyyatların ilk günlərindən London öz ərazisində ukraynalı yaraqlılara təlim keçir. Bu məqsədlə Rusiya silahlarından, məsələn, Kalaşnikov avtomatından da istifadə edirlər.

"Dünyadakı bütün uzunlüləli odlu silahların demək olar ki, beşdə biri Kalaşnikov avtomatlarıdır. Ukrayna ərazisində bir neçə milyon sursat ehtiyatı olan avtomatlar qalıb. Qərbin öz silahları ilə ölkəni aktiv şəkildə vurmasına baxmayaraq, Ukrayna hərbçiləri köhnə Sovet hücum tüfənglərindən istifadə etməkdə davam edirlər", deyə bildirilir. Deməli, heç nə gizli belə saxlanılmır. Hətta açıq şəkildə etiraf da edilir. Təbii ki, bütün dünya ictimaiyyəti də görür və müşahidə edir ki, London təlimçiləri Ukrayna Silahlı Qüvvələrinin əsgərlərini hazırlayırlar və bunu gizlətmirlər.

Ukrayna münaqişəsinin davam etməsində ingilislərin oynadıqları rol

Xatırladaq ki, 2025-ci ildə Böyük Britaniya yeni hərbi yardım paketi təqdim etməklə, Ukraynaya dəstəyini artırıb. Lakin Londonun rolu təkcə döyüşçülərin hazırlanması və avadanlıqların tədarükü ilə məhdudlaşmır. Əks hücum strategiyasının hazırlandığı da artıq göz önündədir. Görünən odur ki, Ukrayna ilə Rusiya arasında olan münaqişənin, müharibənin başa çatmasını ingilislər qətiyyən istəmirlər. Əksinə, münaqişənin hələ uzun müddət davam etməsi üçün əllərindən gələni də əsirgəmirlər. Yəni, Ukrayna münaqişəsinin davam etməsində ingilislərin oynadıqları rol təkzib edilə bilməz. İngilislər göstərdikləri dəstəklə, hərbi təlimlərlə, müxtəlif variantlarla münaqişənin davam etməsində böyük rol oynayırlar.

"The Times" qəzeti belə Böyük Britaniyanın Ukraynadakı hərbi əməliyyatlarda birbaşa iştirakını sübut edən araşdırma dərc edib. 2023-cü ilin yayında Ukraynanın uğursuz əks-hücumundan əvvəl britaniyalı təlimatçılar yaraqlılara "Storm Şadov" qanadlı raketləri və NLAV tank əleyhinə raketlərdən necə istifadə etməyi öyrətmək üçün Ukraynaya gəlmişdilər. Hər halda bu fakt özü də bir çox məqamlardan xəbər verir. Görünür elə sözügedən nəşr məhz bu faktlara istinadən qeyd olunan mövqeyi sərgiləyib və araşdırma da təsadüfi olmayıb.

Diqqətə çatdıraq ki, araşdırmaya əsasən əks-hücum strategiyası məhz ingilis generalları Roli Uoker və Çarli Stiklend tərəfindən hazırlanmışdı. Əməliyyat başlamazdan dərhal əvvəl Britaniya Strateji Komandanlığının rəhbəri Cim Hokkenhalın lazımi məlumatları şəxsən Ukrayna kəşfiyyatının rəhbəri Kiril Budanova çatdırıldığı da açıq şəkildə qeyd olunur. Hərbi ekspertlərin əksəriyyətinin qənaəti də diqqətçəkəndir. "Böyük ehtimalla Britaniya müttəfiq deyil, bu eskalasiyanın təşkilatçısıdır və bir çox cəhətdən təkcə hərbiləşdirməni deyil, həm də Ukraynada uzun müddət, son onilliklərdə bəslənən rusofob ideologiyanı alovlandırır. Yəni, Rusiya Federasiyasına qarşı real, total hibrid müharibə aparılır", deyə hərbi ekspert Aleksandr Stepanov vurğulayıb və bu da qeyd olunanların doğru olduğu qənaətinə gəlməyə əsas verir.

Amma hərbi əməliyyat əvvəldən plan üzrə getməyib. Silah və texnika çatışmazlığı səbəbindən əks-hücum mart ayından iyun ayına qədər təxirə salınmalı olub. Sonra Londonda praktikada əmin olublar ki, Rusiyanı döyüş meydanında məğlub etmək fiziki cəhətdən mümkün deyil. Hətta ən yaxın müttəfiqi olan Fransanın köməyi ilə belə bunun mümkün olmadığına əmin olublar. Xüsusən də zəifləmələrindən sonra buna şübhələri belə qalmayıb. Həqiqətən də 15 il əvvəl Britaniya və Fransa ordularının Liviyada Müəmmər Qəddafiyə qarşı müharibədə demək olar ki, uduzmaları onları çox zəiflədib. Həmin vaxtdan bəri Britaniya və Fransa orduları yalnız zəifləməkdə davam ediblər. Səbəb həm də odur ki, Britaniyada, məsələn, uzun illər silahlı qüvvələrə sərmayələri azaltmaq siyasəti aparılıb və nəticədə Britaniya öz hərbi kompleksinin əhəmiyyətli bir hissəsini itirib. Onlar yalnız indi müasir tanklar istehsal edə bilirlər. Bir sözlə, ingilislər yetərincə potensial sahibi deyillər, amma münaqişənin, müharibənin davam etməsində əllərindən gələni də əsirgəmirlər, Ukrayna münaqişəsinin davam etməsində lazımınca rol da oynayırlar.

Ukraynalı diversantlara təlimi də Britaniya kəşfiyyatı verir

Ukraynalı diversantlara təlim verən Britaniya kəşfiyyatıdır. Bəzi mənbələrin məlumatlarına və ortaya qoyduqları gizli faktlara görə, Krımda silahlıların bu vaxta qədərki bütün hücumları Londonda planlaşdırılıb. Odessada Britaniya hərbçilərinin nəzarəti altında pilotsuz katerlər yığıldığı da bəllidir. Versiyalardan birinə görə, "Dumanlı Albionun" xüsusi xidmət orqanları "Şimal axını" qaz kəmərinin partladılmasında birbaşa iştirak ediblər.

Energetika sahəsində əməkdaşlığın qarşısının alınması, o cümlədən "Şimal axını"nın dağıdılması ilə bağlı məsuliyyət də böyük ölçüdə Britaniya kəşfiyyatının üzərinə düşür. Hətta belə bir ehtimal da var ki, britaniyalılar Rusiyanın potensialını məhdudlaşdırmağa çalışırlar və ümumilikdə Avropa İttifaqının maraqlarına mənfi münasibət bəsləyirlər. Sözsüz ki, məntiqi ardıcıllıq da bunu sübut edir. Əgər ingilislər məhz Avropa ittifaqının Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin pisləşməsində maraqlıdırlarsa, birbaşa rol da oynayıblarsa, deməli, sadalananlar zərrə qədər də şübhə doğurmamalıdır. Avropa İttifaqının maraqlarına mənfi münasibət bəslənildiyinə əmin olunmalıdır.

Tramp və Zelenski arasında da London ixtilaf yaratmağa çalışır

Amerika ordusu və donanması olmadan Britaniya qoşunları müstəqil hərbi əməliyyatlar həyata keçirmək imkanına malik deyillər. Moskva ilə Vaşinqton arasında danışıqlar prosesini qapı arxasından izləməyə məcbur olan Londonu ən çox qıcıqlandıran da bu fakt oldu. Ukraynadakı resurslara və logistikaya nəzarəti Böyük Britaniyanın ələ keçirməsinin yeganə yolunun ölkədəki hərbi mövcudluqdan keçdiyinə də işarə edilir.

İndi Londonun bütün gücü ilə Trampla Zelenski arasında ixtilaf salmağa çalışdığı artıq qətiyyən təkzib edilmir. İngilislər artıq buna, yəni bu ixtilafı salmağa nail olublar. Kiyevdə Amerikanın sülh planını ədalətsiz hesab edirlər, baxmayaraq ki, bu, dövlətçiliyin qalıqlarını qoruyub saxlamağın yeganə doğru yoludur. Lakin Ukrayna münaqişəsinə son qoymaq Böyük Britaniyanın maraqlarına qətiyyən uyğun sayılmır. "London Avropada liderlik mövqeyini gücləndirmək və bununla da Brexiti bir qədər yumşaltmaq üçün Rusiyanı bir fürsət olaraq görür. Eyni zamanda London Rusiyaya Britaniya hərbi sənaye kompleksindən istifadə edərək, Avropa ordularını yenidən silahlandırmaq üçün nəhəng proqramdan pul qazanmaq fürsəti kimi baxır. Britaniya təhrik edir ki, Zelenski münaqişəni davam etdirsin və Ukrayna üçün mümkün nəticələr, yəni insan və ərazi itkiləri London üçün ikinci dərəcəli əhəmiyyət kəsb etsin.

İnam Hacıyev

Mixail Belyayev: “Paşinyan təxribata gedir, hesab edir ki, eyni vaxtda iki stulda otura bilər”

Tanınmış rusiyalı politoloq Mixail Belyayev Ermənistanın Rusiyaya qarşı indiki siyasətini ”Moskva-Baku” portalı üçün şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

- Mixail Kimoviç, Ermənistanın baş nazirinin Moskvada keçirilən Qələbə paradında iştirak etməzdən əvvəl Rusiya ilə münasibətlərlə bağlı İrəvanın ziddiyyətli bəyanatlarını necə şərh edə bilərsiniz?

- Təbii ki, Sovet İttifaqının faşizm üzərində qələbə qazanmasında Ermənistan SSR-in də əməyi olub. Qələbənin 80 illiyi ilə bağlı Ermənistanda tədbirlərin keçirilməsi, Ermənistanın baş nazirinin bununla bağlı Moskvada keçirilən irimiqyaslı tədbirlərdə iştirak etməsi diqqətəlayiqdir. Eyni zamanda, görünür ki, İrəvan eyni vaxtda 2 kresloda - Qərb və Rusiyada- oturmağa, ikili oyun oynamağa davam edir.

Moskvadakı parada səfərdən əvvəl İrəvan bəyan edib ki, İrəvan Ermənistan-Rusiya münasibətlərinə xələl gətirmədən Aİ ilə münasibətləri inkişaf etdirir. Ancaq hər kəsə aydındır ki, belə bir vəziyyətdə sual yaranır- ya Qərb ideologiyasının yanındasınız, ya da Avrasiya ittifaqındasınız. Ermənistanın Qərblə necə gedə biləcəyi mənə tam aydın deyil. Və belə bir peyk ittifaqı açıq şəkildə meydana gələ bilməz.

İrəvan tərəfindən Rusiya və KTMT-yə qarşı o qədər qəribə, heç də həmişə yaltaqlanmayan bəyanatlar verilib. Bu, vəziyyəti heç yerə aparmadı. Həmçinin, Moskvadakı paradda da iştirak olundu. Rusiyaya qarşı bu cür addımlar yalnız ona görə atılır ki, Qərb son vaxtlar Ermənistana verdiyi dəstəyi dayandırıb. Ona görə də Paşinyan bu oyunu təhlükəsiz oynamalıdır. Amma o, səmimi şəkildə yanılır və ya eyni vaxtda iki stulda hələ də oturmağın mümkün olduğuna inanaraq təxribata çəkilir.

Ermənistan parlamentinin spikerinin Rusiyanı hibrid müharibədə ittiham etməsi isə artıq İrəvanın Qərbə boyun əyməsi və onun qarşısında başını yelləməkdir.

Qərbin Ermənistana dəstəyi Trampın ABŞ-da hakimiyyətə gəlməsindən əvvəl olduğundan daha az olub. Amma Paşinyan hələ də Qərbə doğru can atır. Amma Ermənistanın Qərblə vəziyyəti yaxşılaşmayacaq. Rusiya onun qonşusudur. Ermənistan üçün qərbyönümlü meyllər reallıqdan uzaqdır.

Və əgər Ermənistanın baş naziri 2026-cı ildə keçiriləcək parlament seçkilərində yenidən seçilməsi fonunda Konstitusiyaya dəyişiklik etsə və onu Aİ qanunvericiliyinə uyğunlaşdırsa, bu, qırmızı xətt olacaq və bundan sonra o, həqiqətən seçim etməli olacaq - ya Avrasiya ittifaqı, ya da Aİ ilə inteqrasiya. Və bu halda Rusiya da reaksiya verməli olacaq. Axı obyektiv amillər var, reallıq var. Reallıq budur ki, Qərb Ermənistanı istədiyi hər şeyi tam təmin etməyəcək. Aİ ilə iqtisadi əməkdaşlıq isə Ermənistanın Aİİ üzvlüyünün iqtisadi nailiyyətlərini və iqtisadi əməkdaşlığın nəticələrini kompensasiya edə bilməyəcək.

Ermənistanın Aİ-də firavan və parlaq perspektivləri yoxdur. Aİ onu qəbul etməyəcək. Sonra biz öz taleyini Aİ ilə bağlayan və ya bağlamağa çalışan kiçik ölkələrin yolunu gördük. Bu gün onların taleyi necədir? Nədənsə onların işi yaxşı görünmür.

Tərcümə - Elçin Bayramlı

MƏTLƏB
Metlebsalahov@mail.ru

Paşinyan Putinin qoltuğuna sığınır - Moskvadan ”xüsusi tapşırıqla” qayıdıb...

Deyəsən, biz bundan sonra Ermənistan baş nazirini Kremldə tez-tez görməli olacağıq. Daha çox Qərbin ”adamı”, yaxud Cənubi Qafqazda Emmanuel Makronun siyasi təlxəyi kimi siyasi arenada ad çıxarmış Nikol Vavayeviç, həm öz canının, həm də kreslosunun hayına qalmaq üçün Donald Trampın adam yerinə qoymadığı Avropa liderlərindən ümidini kəsib üz tutub Vladimir Putinə tərəf.

9 may hərbi paradına qatılan Nikol Paşinyan bu addımı ilə ilk əvvəl öz siyasi hakimiyyətinin qayğısına qaldığını, Avropalı siyasətçilərin vədləri ilə yanaşı Kremldəki Vladimir Putinin də ”xeyir duasına” qulaq asacağını elan etmiş oldu. Onsuz da ağlı başında olan hər kəs əla bilir ki, yaradıldığı gündən Rusiyanın Qafqazdakı nökər dövləti kimi ad çıxarmış Ermənistanı Moskvanın orbitindən tamamən çıxarmaq və Kremlin razılığı olmadan hakimiyyətdə oturmaq mümkünsüz məsələdir. Hakimiyyətə gəldiyi gündən Qərbin siyasi təlxəyi kimi ad çıxaran N.Paşinyan uzun müddətdir ki, aramsız şəkidlə V.Putinin ”nəfəsini” üzərində hiss etməyə başlayıb.

V.Putinin dostları sayılan və Ermənistanda on illiklər boyu korrupsiya və cinayət səltənəti yaratmış Serj Sarkisyan və Robert Koçaryan, habelə daşnak faşizminin yuvasına çevrilən Eçmiədzin Kilsəsi zaman-zaman baş nazirə təzyiq rıçaqlarını işə salırlar. Xüsusilə revanşist çağırışlarla ənənəvi erməni xəstəliyi olan daşnak ideologiyasını kürükləyən keçmiş hakimiyyət başçıları Rusiyanın Ermənistan üçün yeganə ümid yeri olduğunu deyir, Azərbaycanla sülh müqaviləsinə qarşı çıxış edir, iki ölkə arasında normal münasibətlərin qurulmasının əleyhinə erməni cəmiyyətini qızışdırmaqla məşğuldurlar.

Əlbəttə ki, Moskvanın tapşırığı ilə. Nikol Vavayeviçin Kremldəki tədbirlərdə özünü Rusiya rəhbərinə yaxın şəxs kimi hiss etdirməsi təkcə ənənəvi erməni hiyləgərliyi deyil. Onun Putinin qoltuğuna sığınması həm də daha çox öz hakimiyyətinin təhlükəsizliyi üçün Moskvadan ”dobro” almaq istəyi ilə bağlıdır. Çünki Donald Trampın bütün Avropa liderlərini ”iki qəpiklik” edib rəzilə çevirdiyi, dünya siyasətində hazırda Tram-Putin ittifaqının meydan suladığı bir zamanda hiyləgər erməni baş nazirin Kreml şefinə sığınması sürpriz hadisə sayılmamalıdır. Əlbəttə, V.Putin N.Paşinyanın 9 may paradı üçün Moskvaya getməsini bir şəkildə ”qiymətləndirəcək”. Bu ”qiymət” N.Paşinyanın nəzərdə tutduğu kimi olacaq, ya başqa formada, bunu zaman göstərəcək. Bircə o dəqiqdir ki, hazırkı Ermənistan hakimiyyətinin başçısı İrəvandakı ruspərəst revanşistləri zərərsizləşdirməklə onların təzyiqlərindən canını qurtarmaq, Moskvanın etimadını qazanmaqla bölgədə hakimiyyəti üçün təhlükəsizlik çətiri qazanmaq istəyir.

Amma görünən odur ki, Azərbaycanın qlobal güclərlə ittifaq qurduğu bir vaxtda Moskvanın Ermənistana tapşıracağı ”çox mühüm işlər” olacaq. Həmişə olduğu kimi, Moskva ən çirkin işləri yenə ermənilərə gördürəcək. V.Putin üçün fərqi yoxdur, Sarkisyan və Koçaryan olmasın, olsun elə Paşinyanın özü. Əsas odur erməni olsun...

150 illik ənənə davam edir

Müstəqil mətbuatın yaradılması və inkişafı Ulu Öndərimiz Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə bağlıdır

Bu gün Azərbaycan siyasi, iqtisadi, diplomatik, hərbi və digər sahələrdə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanan dövlətlərdən biri kimi tanınır və qəbul edilir. 44 günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsi ölkəmizin dünya miqyasında gücünə yeni güc qatdı, hörmətini, nüfuzunu yüksəkliklərə qaldırdı. Söz yox ki, uğurların, qələbələrin əldə olunmasında ölkə mətbuatının da müstəsna rolu mövcuddur. Azərbaycan mətbuatı çətin, ağır, həm də şərəfli yol keçib və bu gün dünyada azad, müstəqil medialardan biri olaraq tanınır. Hər il "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi Milli Mətbuat Günü kimi qeyd olunur. 2025-ci il Azərbaycan Milli Mətbuatının 150 illiyidir. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb...

"Əkinçi" xalqın oyanışında, milli dirçəlişində əhəmiyyətli rol oynadı

Azərbaycan mətbuatının bünövrəsi 1875-ci ilin 22 iyulunda maarifçi ziyalı Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlamış "Əkinçi" qəzetinin işıq üzü görülməsi ilə qoyulub. Azərbaycan dilində nəşr edilən qəzet o dövrdə əhalinin maariflənməsində, özünüdərkində müstəsna rol oynadı. Qəzet 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, əhalinin maariflənməsində, özünüdərkində, milli mətbuatın təşəkkül tapmasında müstəsna rol oynadı. Məhz "Əkinçi"dən başlayan mətbuat yolu sonrakı illərdə "Ziya", "Şərqi-Rus", "İrşad", "Molla Nəsrəddin" və s. nəşrlər xalqın oyanışında, milli dirçəlişində əhəmiyyətli işıq olmuşdur. Cəmi 23 ay fəaliyyət göstərmiş Xalq Cümhuriyyəti dövründə də əsası "Əkinçi"dən qoyulan ənənə böyük fədakarlıqla davam etdirilmişdir. O dövrdə 150-yə yaxın qəzet və jurnalın, o cümlədən də Üzeyir bəy Hacıbəylinin və Ceyhun bəy Hacıbəylilərin böyük əməyi və zəhmətləri sayəsində 1919-cu ildən nəşr olunan "Azərbaycan" qəzetinin nəşrə başlaması əcdadlarımızın mirasına, irsinə sahib çıxıb, onları yaşatmağı bacardıqlarının nümayişi olmuşdur.

Sovetlər dövründə müstəqil, milli mətbuatın formalaşmasına və inkişafına əngəllərin yaradılmasına cəhdlər göstərilsə də işıqlı insanlarımızın, maarifpərvər ziyalılarımızın prinsipiallığı və qətiyyəti sayəsində xalqın istək və tələblərinə uyğun qəzetlərin, jurnalların nəşr olunmasına nail olunmuşdur. O dövrün sərt qaydalarına baxmayaraq Azərbaycanın milli mətbuatı min illik xalqımıza məxsus olan dəyərlərini, milli irsini cəmiyyətə təqdim etməyi bacarmışdır. Bu baxımdandır ki, keçmiş sovetlər ittifaqında ən azad və sərbəst olaraq sözünü deməyi, fikrini ifadə etməyi bacaran Azərbaycan mediası olmuşdur.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Azərbaycan mətbuatının yeni dövrün tələblərinə uyğun olaraq formalaşmasının əsası qoyuldu. Bu halda belə hakimiyyətdə olan AXC-Müsavat iqtidarı müstəqil mətbuatı buxovlamağa, söz azadlığına maneələr törətməyə çalışsalar da, istəklərinə nail ola bilmədilər. AXC-Müsavat hakimiyyəti dövründə azad media təmsilçiləri təqib olundular, TV-lərdə keçirilən canlı yayımlara basqınlar təşkil edib, jurnalistləri döyüb, təhqir etdilər, avtomobillərinin "baqaj"larına basıb alçaltdılar, ancaq xalqın ziyalılarının azad düşüncəsini, fikir plüralizmini əlindən ala bilmədilər. "Pis günün ömrü az olar", - deyiblər.

Azad və müstəqil mətbuatın yaradıcısı

Azad medianın boğulması, fikir azadlıqlarına əngəllərin yaradılmasına Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə son qoyuldu. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi mətbuatın inkişaf tarixində də yenidən dövrün əsası qoyuldu. Qısa müddətdə müstəqil media yaradıldı, azad düşüncəyə, demokratik fəaliyyətə üstünlük verən peşəkar jurnalistlər formalaşdı. Ulu Öndərimiz Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycanda söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə Azərbaycan mətbuatı üzərindəki senzura ləğv edildi. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv olunmuş və dövlətin mətbuat üzərində nəzarət funksiyasından imtina edilmişdir. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Qanuna əlavə və dəyişikliklər edilməsi qəzet, jurnal təsis etmək işini xeyli asanlaşdırmışdır. 2001-ci ildə ölkədə kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında verilən Fərman və sərəncamlar mətbuata göstərilən qayğının miqyasını daha da artırmışdır. 2003-cü ildə Azərbaycan jurnalistlərinin birinci qurultayında mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurası yaranmışdır. Bu baxımdan birmənalı şəkildə demək olar ki, Azərbaycanda azad və müstəqil mətbuatın yaradılması Ulu Öndərimiz Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Ölkəmizin jurnalistləri Ulu Öndərimiz Heydər Əliyevin xeyirxahlığını, böyük dəstəyini, himayədarlığını daim yüksək qiymətləndirib. Bunun nəticəsi olaraq Ulu Öndər Heydər Əliyev 2002-ci ildə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Ulu Öndərimiz Heydər Əliyevin xeyirli, gərəkli media siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə hər cür dəstəyini göstərir. 2005-ci ildə milli mətbuatın 130 illik yubileyi ərəfəsində mətbu orqanlara güzəştli kreditlərin ayrılması dövlətin mətbuatın inkişafında maraqlı olduğunu bir daha təsdiqləmişdir. Həmin il qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları silinmiş və 30-a yaxın KİV-ə maddi yardım edilmiş, 140-dək jurnalistə təqaüdlər, fəxri adlar, orden və medallar verilmişdir. Bütün hallarda Prezident İlham Əliyev jurnalistlərin maraq və mənafeyni qoruyub, onların sosial-məişət problemlərinin həll edilməsi istiqamətində fərman və sərəncamlar imzalayıb. Məhz bu kimi xeyirxahlığına görə, Prezident İlham Əliyev Azərbaycan jurnalistlərinin yaxın dostuna, sirdaşına çevrilib. Təsadüfi deyil ki, "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 2010-cu il dekabrın 1-dən 20-dək "Jurnalistlərin dostu" mükafatı qalibinin müəyyənləşdirilməsi ilə bağlı KİV və jurnalist təşkilatları arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, ölkə Prezidenti İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir

Bu gün Azərbaycanda istənilən hüquqi və fiziki şəxs sadə prosedurları keçməklə qəzet açmaq, sayt yaratmaq, internet televiziyaları təsis edə bilər. Ölkəmiz Avropa məkanında yeganə ölkədir ki, qəzet açmaq, sayt yaratmaq, internet televiziyalar təsis etmək üçün heç bir dövlət orqanından icazə almağa ehtiyac yoxdur. Bu baxımdandır ki, region ölkələri ilə müqayisədə Azərbaycanda media subyektlərinin sayı daha çoxdur. Hazırda ölkəmizdə 4500-dən artıq mətbuat orqanı Ədliyyə Nazirliyində qeydiyyata götürülmüş, 80-ə yaxın informasiya agentliyi müvafiq dövlət orqanında qeydiyyatdan keçmişdir. Respublikamızda 36 gündəlik, 100-ə yaxın həftəlik və 8-dən artıq aylıq qəzet nəşr olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı və MEDİA Agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və şaxələndirilməsinə yeni imkanlar yaradır. Müsbət məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Ölkəmizdə keçirilən istənilən beynəlxalq tədbirlərdə MEDİA Agentliyi fəallığı ilə seçilir. Noyabrın 11-22 aralığında ölkəmizdə keçirilən COP29 konfransında Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi regional və qlobal təhlükəsizlik sisteminin təmin olunması, qarşılıqlı əməkdaşlıq platformalarının reallaşdırılması baxımda dünyanın media orqanları ilə çoxtərəfli əməkdaşlıq əlaqələri qurmağa nail oldu. Dövlətimizin apardığı mükəmməl işlərin, MEDİA Agentliyinin xarici KİV-lərlə səmərəli əməkdaşlığının nəticəsi olaraq xarici KİV-lər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı reallığı əks etdirən fikirlər və yazılarla çıxış etmişlər. "Komsomolski pravda", "Financial Times", "The Guardian", "Bloomberg", "Reuters" "Euronews" kanalı, Türkiyənin "TRT Haber" telekanal, "Anadolu" Xəbər Agentliyi, "TRT Avaz", "Star" qəzeti, İtaliyanın "il Manifesto", "Meteo Giornale", "Editoriale Domani", "Avvenire", "Upday" ,"Bild", "ZDF Heute", "Deutsche Welle", "Tagesschau", "Freitag", "Sueddeutsche" və bu kim digər dünyanın nüfuzlu media qurumları BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu konfransını dünya tarixində ən mükəmməl konfrans adlandırmış və aparılan müzakirələr, qəbul olunan qərarlar haqqında müsbət xarakterli geniş və əhatəli verilişlər yayımlayıb, informasiyalar paylaşıblar.

Azərbaycan informasiya savaşında da qalibdir

Görünən ondan ibarətdir ki, Azərbaycanın bütün sahələr üzrə güclənməsi yerli və xarici maraqlı dairələri ciddi narahat edir. Vaxtaşırı olaraq Azərbaycana qarşı aparılan çirkin qara piar kampaniyasının əsas hədəfi Azərbaycanın beynəlxalq miqyasda qazandığı uğurlara kölgə salmaq olub. Bu hal xüsusilə də, Azərbaycanın 2020-ci ilin sentyabrın 27-də başladılan və 44 gün davam edən Vətən Müharibəsi dövründə və 2023-cü il 19 sentyabr tarixində Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı özünü daha açıq formada göstərib. Lakin medianın peşəkarlığı öz sözünü deməyi bacardı. Vətən müharibəsində, eləcə də antiterror tədbirlərində Azərbaycan döyüş meydanında olduğu kimi, informasiya savaşında da qələbə qazanmağı bacardı.

Azərbaycan KİV-lər birlik və bərabərlik nümayiş etdirməklə xarici təxribatçılara və Ermənistanın pozucu dezinformasiya daşıyıcılarına ən sərt cavabını verdi. Xalqın Ali Baş Komandan İlham Əliyevin və Müzəffər Ordunun ətrafında sıx birləşməsi və bu birliyi Azərbaycan mediasının qurduğu peşəkar təbliğatı ilə daha möhkəmlənməsi ölkəmizin Ermənistanın və onun himayədarları üzərində hərbi, siyasi, diplomatik qələbə qazanmasına səbəb oldu. Bu qələbə Azərbaycan mediasını daha da ruhlandırdı, jurnalistlərin daha səmərəli və peşəkar davranış nümayiş etdirməsinə stimul yaratdı.

Söz yox ki, media sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və müasir dövrün tələblərinə uyğun islahatların aparılması KİV-lərin inkişafına və jurnalist peşəkarlığının artırılmasına təkan verir. Məhz bundan çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin fevral ayının 8-də "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Fərman imzalayıb. "Media haqqında" Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır.

Bir sözlə, bünövrəsi "Əkinçi"dən qoyulan dürüstlük, ədalətli mövqe, hadisələrə peşəkar yanaşma, dövlətin və xalqın maraqlarını hər şeydən üstün tutmaq fəaliyyəti bugünkü azad və müstəqil medianın timsalında daha da inkişaf etməkdədir. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncamı jurnalistlərin özlərinə olan inamı artıracaq və zəngin mətbu irsimizin öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində fəaliyyətlərinin daha da güclənməsinə yardımçı olacaq.

İLHAM ƏLİYEV

Davamlı sosial dəstək

Dövlət başçısının Sərəncamına əsasən, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı tədbirləri davam edəcək

Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərir. Onların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

”Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 65 (Cild I); 2024, № 2, maddə 171) 1-ci və 3-cü hissələrində ”2025-ci” sözləri ”2030-cu” sözləri ilə əvəz edilib. Dəyişiklik 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Sərəncamda qeyd edilən 2021-2025-ci illər dövrü 2021-2030-cu illər olaraq müəyyən edilib.

ŞƏHİD AİLƏLƏRİ VƏ MÜHARİBƏ İLƏ ƏLAQƏDAR ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ MİN MƏNZİL VERİLƏCƏK

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir.

Bu il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə min mənzilin verilməsi nəzərdə tutulub. Hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulacaq.

Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi möhtəşəm Zəfərlə başa çatan Vətən müharibəsindən sonra 5 dəfə genişlənib. Onlara postmüharibə dövründə 6,8 min, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib, bu il isə daha 1000 mənzil verilməsi nəzərdə tutulub.

”AZƏRBAYCAN SOSİAL DÖVLƏTDİR VƏ BİZ BUNU SÖZLƏ YOX, ƏMƏLİMİZLƏ TƏSDİQLƏYİRİK”

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Təbii ki, bütün bunlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, müharibə veteranlarının, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. ”Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik”, - deyən Azərbaycan Prezidentinin imzaladığı Fərman və Sərəncamlarla müavinət və təqaüdlərin, bir sıra təşkilatlarda çalışanların əməkhaqlarını artırılması həyata keçirilən islahatların davamı, dövlət başçısını sözü ilə əməlinin vəhdətdə oluğunun təzahürüdür.

23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırıldı. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Bütün pensiyalar isə 8,1 faiz indeksləşdirilməklə artırılıb.

2018-ci ildən ötən dövrdə də dövlətimizin başçısının tapşırıqları əsasında 5 sosial islahat paketi reallaşdırılıb. Bu islahatlar illik əlavə maliyyə tutumu 7,6 milyard manat olmaqla, 4 milyon nəfəri əhatə edib.

”BİZİM SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI, ONUN RAHATLIĞI, SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ DAYANIR”

Azərbaycanda mövcud olan sosial ədalət dünya üçün bir modeldir. Sosial ədalətin təmin edilməsi prioritet məsələlərdən biridir. Ölkəmizdə sosial ədalətin təminatı istiqamətində ciddi addımlar atılıb. Azərbaycanda dövlətin iqtisadi siyasətinin sosial yönümlü olması, Prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət, insan amilinə verilən yüksək dəyər sosial ədalətdən qaynaqlanır. Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində əlbəttə ki, insan amili daynır, onların maraqları dayanır.

Vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində aparılan işlər Azərbaycan dövlətinin prioritetlərindəndir. Minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlər dövlət başçısı tərəfindən təqdim edilən böyük sosial paketin tərkib hissəsidir. Həyata keçirilən islahatlar sosialyönümlülük və humanizm prinsiplərinə əsaslanır. Yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması və s. Azərbaycanın dinamik inkişaf edən bir ölkə olduğuna əsaslanır. Sosial rifah və ədalət prinsipi dövlət siyasətinin strateji xəttini təşkil edir.

”Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı və təhlükəsizliyi dayanır” deyən dövlət başçısının tapşırıqlarına əsasən, ölkəmizdə sosial sahədə ardıcıl və məqsədyönlü islahatlar aparılaraq, sosial müdafiə sisteminin gücləndirilməsi, aktiv məşğulluq proqramlarının xeyli genişləndirilməsi, müasir və etibarlı, dayanıqlı sosial təminat sisteminin qurulması, sosial ödənişlərdə davamlı artımlar təmin edilib.

Nəzakət ƏLƏDDİNQIZI

Ukrayna-Rusiya danışıqları: Türkiyə hakimdir!

Rusiya və Ukrayna arasında mayın 15-də İstanbulda keçirilməsi planlaşdırılan birbaşa danışıqlara bir gün qalmış Moskva hələ də orada Rusiya Federasiyasını kimin təmsil edəcəyini açıqlamayıb. Bir sıra Telegram kanalları Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə uçmaq niyyətində olmadığını bildirib (o, danışıqlarda iştirakını açıqlamayıb). Ukrayna prezidenti Vladimir Zelenski isə öz növbəsində Vladimir Putindən başqa heç kimlə danışıqlar aparmağın mənası olmadığını deyir və Rusiya prezidenti ilə əlaqəni qadağan edən öz fərmanının ona mane olmadığını iddia edir. Və ABŞ prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq bildirib ki, Donald Trampın İstanbula gəlişi Vladimir Putinin oraya gəlib-gəlməməsindən asılı olacaq.

Mayın 13-də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Rusiyanın mayın 15-də İstanbulda Ukrayna ilə danışıqlara hazırlığını davam etdirdiyini bildirsə də, Moskvanın orada hansı səviyyədə təmsil olunacağını açıqlamayıb. "Kreml Putin lazım bildiyi kimi Ukrayna ilə danışıqlarda Rusiya Federasiyasını kimin təmsil edəcəyini açıqlayacaq", - deyə Peskov konfrans zamanı bildirib.

Xatırladaq ki, Rusiya prezidenti ötən həftənin sonunda Rusiya ilə Ukrayna arasında 2022-ci ildə kəsilmiş birbaşa danışıqların bərpasını təklif etmişdi. Lakin o, Türkiyəyə özünün gəlmək niyyətində olub-olmadığını və ya başqasının Rusiya nümayəndə heyətinə rəhbərlik edib-etməyəcəyini dəqiqləşdirməyib. Bu arada, mayın 13-də Rusiya və Ukraynanın bir sıra Telegram kanalları müxalifət nəşrinə istinadən İstanbulda keçiriləcək danışıqlarda nümayəndə heyətinə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun başçılıq edəcəyini və Vladimir Putinin oraya uçmayacağını bildirib. Eyni zamanda, mənbə istisna etməyib ki, "ABŞ prezidenti Donald Trampla bəzi şəxsi razılıq əldə olunarsa, Putinin səfərinə hazırlıqla bağlı qərar istənilən vaxt verilə bilər", baxmayaraq ki, onun mayın 15-i üçün nəzərdə tutulan proqrama hazırda Kremldə görüşlər daxildir.

Öz növbəsində Ukrayna prezidenti Vladimir Zelenski Vladimir Putinlə birbaşa danışıqlara hazır olduğunu bildirib. Prezident aparatının məlumatına görə, Ukrayna lideri başqa heç kimlə deyil, yalnız Rusiya prezidenti ilə danışmaq niyyətindədir. Lakin sonradan Zelenski özü bu sözləri müəyyən mənada rədd edib. "Əgər Putin Ankaraya uçmağa hazır deyilsə, mən İstanbula uçacağam. Bu görüşün baş tutması üçün hər şeyi edəcəyik", - Ukrayna prezidenti bildirib. Vladimir Zelenski 2022-ci ilin payızında verdiyi Vladimir Putinlə danışıqları qadağan edən fərmanın ona aid olmadığını iddia edib.

Mayın 12-də ABŞ prezidenti Donald Tramp da Rusiya-Ukrayna danışıqlarında şəxsi iştirakının mümkünlüyünü bildirib. Lakin bir çox müşahidəçilərin fikrincə, bu, Ağ Ev rəhbərinin özünün Türkiyəyə uçmaq istəyindən çox Rusiya və Ukrayna liderlərinə təzyiq etmək cəhdi idi. Trampın İstanbul danışıqlarına gedəcəyi ilə bağlı şübhələr, ilk növbədə, həm logistika, həm də təhlükəsizlik xidmətləri baxımından onun səfərinə bu qədər qısa müddətdə hazırlaşmağın çətinliklərindən yaranıb. Bununla belə, CNN-in mayın 13-də verdiyi məlumata görə, ABŞ prezidentinin xüsusi elçiləri Stiv Vitkoff və Keyt Kelloq İstanbuldakı görüşdə müşahidəçi qismində iştirak etmək niyyətindədirlər. Sonuncu həmin gün etiraf edib ki, Donald Tramp hələ də onlara qoşula bilər, lakin onun İstanbula səfər etmək qərarı Vladimir Putinin oraya gedib-getməməsindən asılıdır.

Eyni zamanda, mayın 13-də ABŞ-da Stiv Vitkoffun Breitbart portalına müsahibəsi dərc olunub. Orada ABŞ prezidentinin xüsusi nümayəndəsi Vaşinqtonun əvvəllər verdiyi ultimatumu bir daha açıqlayıb: Moskva və Kiyev birbaşa danışıqlara getməsələr, Vaşinqton danışıqlar prosesindən çıxacaq. Bundan başqa, o, Ukrayna münaqişəsinin nizamlanması çərçivəsində həllini tələb edən məsələləri də sadalayıb. Bura yeni regionlar məsələsi, yəni, Zaporoji AES, Ukraynanın Dneprdən istifadə etməsi və Qara dənizə çıxış imkanları daxildir.

Keyt Kelloqun sözlərinə görə, İstanbulda ABŞ ilk növbədə Ukraynada hərtərəfli atəşkəs əldə etməyə çalışacaq və yalnız bundan sonra ərazi məsələlərinə keçəcək. Danışıqlarda irəliləyiş olmasa, ABŞ-ın Rusiyaya qarşı "əhəmiyyətli" və "ən ciddi" sanksiyaları mümkündür, deyə Kelloq çərşənbə axşamı hədələyib.

Son günlər Avropa paytaxtlarından qarşıdan gələn İstanbul görüşünə həsr olunmuş bir çox bəyanatlar eşidilir. Lakin, əsasən ultimatum tonda. Belə ki, Almaniya kansleri Fridrix Merz bəyan edib ki, həftənin sonuna qədər atəşkəsdə irəliləyiş əldə olunmasa, Rusiyaya qarşı enerji və maliyyə bazarları ilə bağlı sanksiyalar gücləndiriləcək. Fransa prezidenti Emmanuel Makron həmin gün onu dəstəkləyib: "Ya Rusiya, Putin həqiqətən də sülhə sadiqdir, ya yox - sonra biz sanksiyaları sərtləşdirməliyik".

Xatırladaq ki, mayın 10-da Kiyevə səfəri zamanı Fransa, Almaniya, Polşa və Böyük Britaniya liderləri Rusiyanı Ukraynanın ilkin şərt olmadan 30 günlük atəşkəs təklifi ilə razılaşmağa çağırıblar. Mayın 12-də Fransa, Almaniya, İtaliya, Polşa, İspaniya və Böyük Britaniyanın xarici işlər nazirləri Londonda keçirilən görüşdə bu çağırışı təkrarlayıblar. Avropanın sülh prosesinə cəlb olunmasına gəlincə, Moskva növbəti dəfə avropalıları öz yerində oturdub. Mayın 13-də daha əvvəl "ultimatum dilinin qəbuledilməz olduğunu" deyən Dmitri Peskov bildirib ki, Avropa tamamilə Ukraynanın tərəfindədir və buna görə də Rusiya-Ukrayna münaqişəsinin həllində vasitəçi roluna iddia edə bilməz. "Ümumilikdə Avropanın belə bir çərçivə danışıqlar prosesində iştirakından danışsaq, o zaman Avropa hələ də tamamilə Ukraynanın tərəfində olduğuna görə heç bir şəkildə qərəzsiz yanaşma, balanslaşdırılmış yanaşma iddia edə bilməz", - Kreml nümayəndəsi jurnalistlərə açıqlamasında Moskvanın avropalı siyasətçilərin fikirlərini dinləməyə meylli olmadığını açıqlayıb.

Türkiyə isə...

Türkiyə lideri Ukraynada sülhə nail olmaq üçün danışıqlara qoşulmağa hazır olduğunu açıqlayıb. Türkiyə Ukraynada hərbi əməliyyatların dayandırılması üçün istənilən vasitə ilə, o cümlədən danışıqlar yolu ilə sülh prosesinə töhfə verməyə hazırdır. Bunu bazar günü, mayın 11-də "Anadolu" agentliyinə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Türkiyə lideri Fransa prezidenti Emmanuel Makronla telefon danışığı aparıb. Siyasətçilər Türkiyə ilə Fransa arasında ikitərəfli münasibətləri, regional və qlobal məsələləri müzakirə ediblər. Ərdoğan Ukrayna ilə Rusiya arasında müharibənin sona çatması yolunda "tarixi mərhələnin" əldə edildiyini, fürsətdən istifadə edilməli olduğunu, atəşkəs və davamlı sülhün təmin edilməsi üçün Türkiyənin danışıqlar aparmaq da daxil olmaqla, mümkün olan hər cür töhfəni verməyə hazır olduğunu bildirib.

Prezident Ərdoğan Ukrayna ilə Rusiya arasında uzunmüddətli sülh danışıqlarının başlanmasında və Ukraynada yenidənqurma proseslərinin həyata keçirilməsində əməkdaşlığın davam etdirilməsinin vacib olduğunu bildirib. Xatırladaq ki, Ukrayna, ABŞ və "qətiyyətlilər koalisiyası" Rusiyaya 30 günlük tam atəşkəs rejiminə mayın 12-də başlamağı təklif etmişdi. Putin 30 günlük atəşkəs ideyasına məhəl qoymadı. Əvəzində o, mayın 15-də İstanbulda heç bir şərt olmadan Ukrayna ilə birbaşa danışıqları bərpa etməyi təklif edib.

Rusiya rəsmiləri Putini danışıqlardan çəkindirir - ISW

Analitiklər deyirlər ki, aşağı səviyyəli Kreml rəsmiləri Zelenskinin Putini İstanbul görüşünə dəvət etmək niyyətinə şübhə edirlər. Rusiya rəsmiləri Kremlin rəhbəri Vladimir Putinin Ukrayna prezidenti Vladimir Zelenski ilə danışıqlar üçün İstanbula getməsinə icazə vermir. Bu barədə Müharibənin Öyrənilməsi İnstitutunun (ISW) gündəlik hesabatında deyilir. Analitiklər vurğulayırlar ki, bir gün əvvəl Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçev Zelenskinin dəvətinin "saf şou" və "komediya" olduğunu deyərək, "belə çətin vəziyyətdə" yüksək səviyyəli görüşlərin təşkil olunmadığını iddia edib. Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri Rodion Miroshnik Zelenskinin Putini İstanbuldakı görüşə dəvət etmək niyyətini şübhə altına alıb.

ISW qeyd edir ki, mayın 12-də Rusiya Dövlət Dumasının Beynəlxalq Əlaqələr Komitəsinin sədr müavini Aleksey Çepa Putinin Zelenski ilə görüşmək üçün İstanbula gedəcəyinə şübhə etdiyini bildirib. Analitiklərin fikrincə, Kreml səviyyəli rəsmilər Zelenskinin dəvətinə rəsmi cavab verməsələr də, aşağı səviyyəli Rusiya rəsmilərinin açıqlamaları Putinin Zelenski ilə görüşmək üçün İstanbula getmə ehtimalının az olduğunu göstərir.

Yada salaq ki, Rusiya prezidenti Vladimir Putin Ukrayna, ABŞ və "qətiyyətli koalisiya" ölkələrinin mayın 12-dən atəşi dayandırmaq təklifini rədd edib, əvəzində mayın 15-də İstanbulda birbaşa danışıqları təklif edib. Buna cavab olaraq Ukrayna prezidenti Vladimir Zelenski Kremlin rəhbərini şəxsən İstanbulda gözləyəcəyini bildirib.

İstanbul görüşünə Tramp da gəlmək istəyir

Tramp Moskvanın indiyədək rədd etdiyi 30 günlük qeyd-şərtsiz atəşkəsə "Rusiyanın razılaşacağı hissini" keçirdiyini bildirib. ABŞ prezidenti Donald Tramp deyib ki, o, mayın 15-də Vladimir Zelenskinin sülh danışıqları üçün Vladimir Putini gözləyəcəyi Türkiyəyə səfərini istisna etmir. ABŞ prezidenti həm Zelenskinin, həm də Putinin cümə axşamı Türkiyədə olacağına ümid etdiyini bildirib və əlavə edib ki, "nəsə ola biləcəyini" düşünərsə, özü də "uçuş haqqında düşünüb".

Tramp və sövdələşmələr

Tramp daha sonra jurnalistlərin sualına cavabında aydınlıq gətirdi ki, əgər bunu "razılaşmanın əldə olunması üçün vacib hesab" etsə, uça bilər - o, yəqin ki, Kiyev və Moskva arasındakı razılaşmanı nəzərdə tutub. "Onlar görüşlə bağlı razılığa gələ bilmədilər, çünki biri atəşkəsdən danışırdı, digəri yox və s. - amma faydalı olacağını düşünsəm oraya uçacağam" deyə o əlavə edib. Tramp daha sonra Moskvanın indiyə qədər rədd etdiyi 30 günlük qeyd-şərtsiz atəşkəsə "Rusiyanın razılaşacağını hiss etdiyini" söyləyib.

Ukrayna prezidenti Vladimir Zelenski Trampın İstanbul görüşündə iştirakını dəstəklədiyini bildirib. "Prezident Trampın bəyanatını eşitdim. Çox vacib sözlər... Mən prezident Trampı Putinlə birbaşa danışıqlar ideyası ilə dəstəklədim. Açıq şəkildə dedim ki, görüşə hazıram. Mən Türkiyədə olacam. Ümid edirəm ki, ruslar bu görüşdən yayınmayacaqlar", - Zelenski bazar ertəsi, mayın 12-də Telegram-da deyib. Ukrayna prezidenti əlavə edib ki, o, Trampı tam və qeyd-şərtsiz atəşkəs ideyası ilə dəstəkləyib və Ukraynanın öz tərəfdən susqunluğu təmin etməyə hazır olduğunu vurğulayıb. "Əlbəttə ki, Ukraynada hamımız istərdik ki, prezident Tramp bizimlə birlikdə - Türkiyədə bu görüşdə olsun. Bu, düzgün fikirdir. Biz çox şeyi dəyişə bilərik", - Zelenski qeyd edib.

Zelenski hər halda gedir

Rusiya tərəfi hələ də Zelenskinin Putinlə birbaşa danışıqlar təklifinə cavab verməyib. Axios Ukrayna rəsmisinə istinadən xəbər verir ki, Rusiya mayın 12-də atəşkəsə başlamağa razı olmasa belə, Zelenski danışıqlar üçün Türkiyəyə gedəcək. Ukrayna prezidenti Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla danışıb və onunla "sülhə nail olmaq üçün gələcək birgə iş" mövzusunda razılaşıb.

"Mən prezident Ərdoğanla danışdım. Müharibənin sona çatmasına kömək edə biləcək Türkiyədə keçirilən görüşün əsas detallarını müzakirə etdik. Diplomatiyanın ən yüksək səviyyədə asanlaşdırılması üçün dəstəyə və hazırlığa görə minnətdaram. Biz eyni dərəcədə atəşkəsə ehtiyac olduğunu görürük", - Zelenski Telegram kanalında yazıb. Türkiyə prezidenti Zelenski ilə danışdıqdan sonra "fürsət pəncərəsindən" yararlanmağa çağırıb. "Ümid edirik ki, bu fürsətlər əldən verilməyəcək", - deyə Ərdoğan bildirib.

Vəziyyətin İstanbullaşması

Türkiyə üç illik fasilədən sonra mayın 15-də İstanbulda Rusiya və Ukrayna arasında yeni birbaşa danışıqlara ev sahibliyi etməyə hazırlaşır. Hakim Ədalət və İnkişaf Partiyasının nümayəndəsi Ömər Çelik Moskva ilə Kiyev arasında dialoqun başlanmasında ölkəni aparıcı rola qaytarmaq əzmində olduğunu açıqlayıb. Vladimir Putinin köməkçisi Yuri Uşakovun izah etdiyi kimi, İstanbulda aparılan danışıqlarda 2022-ci ildə əldə edilmiş razılaşmalar və "yerdə" vəziyyət nəzərə alınmalıdır. Danışıqlara hazırlıq Kiyev və onun Avropalı müttəfiqlərinin Rusiya və Ukrayna arasında dialoq başlamazdan əvvəl dərhal 30 günlük atəşkəs tələblərini ləğv edib. Prezident Tramp planlaşdırılan görüşü "çox vacib" hesab etdiyini, onun keçirilməsində israrlı olduğunu və hətta özü də İstanbula gələ biləcəyini söyləyib.

Vladimir Putinin mayın 15-də İstanbulda Moskva ilə Kiyev arasında 3 il əvvəl kəsilmiş birbaşa danışıqların bərpası təklifinin icrasına hazırlıq Türkiyə Nazirlər Kabinetinin mayın 12-də prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən iclasının əsas mövzularından birinə çevrilib. Hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik bildirib ki, Moskvanın Rusiya-Ukrayna danışıqları üçün məkan kimi İstanbulu seçməsi Türkiyənin vasitəçilik roluna inamını nümayiş etdirir. "Türkiyə üçün yeganə fayda qlobal və regional sülhün bərqərar olması və onun qorunub saxlanmasıdır. Bundan başqa, Türkiyənin heç bir gizli və ya gizli gündəmi yoxdur" deyən Ömər Çelik, "A Haber" telekanalına verdiyi açıqlamada, hər kəsin "danışıq masasını alt-üst etdiyi halda" Türkiyənin onları təşkil etdiyini bildirib.

Türkiyənin diplomatik mənbəsinin verdiyi məlumata görə, təşkilati məsələlərin daha da həlli üçün Ankara Moskva və Kiyevdən qarşıdan gələn görüşlə bağlı konkret məlumat, o cümlədən mayın 15-də keçiriləcək danışıqlarda iştirak etməyə hazır olduğunun rəsmi təsdiqini və nümayəndə heyətlərinin tərkibi barədə məlumat gözləyir. Mayın 12-də Vladimir Putinin köməkçisi Yuri Uşakov Rusiya tərəfinin gözləntiləri və baş tutacağı təqdirdə Kiyevlə danışıqlar prosesinə yanaşması barədə məlumat verib: "İndi heç bir şərt olmadan danışıqların aparılması təklifi verilib. Biz gəlib danışıqlara başlamalıyıq. Çox sadədir, əgər təbii ki, insanlar bunu istəyirlər". Ancaq o, Rusiyanın danışıqlarda hansı səviyyədə təmsil olunacağı sualına cavab verməkdən yayınıb. "Prezident əmr verəcək, sonra biz bunu açıqlayacağıq" deyib.

Moskvanın İstanbulda Ukrayna ilə birbaşa danışıqlar formatını canlandırmaq təklifi sıfırdan dialoq deyil, əvvəllər əldə edilmiş razılaşmalara qayıdış və onların bugünkü reallıqlara uyğunlaşdırılmasını nəzərdə tutur. Moskva üçün əsas olan bu mövqeyi Vladimir Putin hələ ötən ilin mayında İstanbul razılaşmalarını dəyərləndirərkən bildirmişdi. "Prinsipcə, Ukrayna tərəfi ümumən bundan razı qaldı, Rusiya tərəfi də bundan razı qaldı. İşlənmək lazım olan bəzi məqamlar var idi, amma ümumilikdə, yenə deyirəm, bu sənəddə Ukrayna tərəfinin imzası varsa, deməli, Ukrayna tərəfi bundan razı qalıb", - Vladimir Putin qeyd edib.

Bundan əvvəl Rusiya prezidenti Sankt-Peterburqda Afrika liderləri ilə ünsiyyətdə olarkən onlara Ukrayna ilə 2022-ci ildə paraflanmış saziş layihəsini göstərib.Vladimir Putinin sözlərinə görə, sənəd 18 maddədən ibarətdir və "Ukraynanın daimi neytrallıq və təhlükəsizlik zəmanətləri haqqında müqavilə" adlanır. 1-ci maddənin 1-ci bəndində deyilir ki, "Ukrayna Konstitusiyada elan edilmiş və təsbit olunmuş daimi neytrallığını qorumağı öhdəsinə götürür". Bundan əlavə, sazişdə qeyd olunur ki, qarant dövlətlər Ukraynanın daimi neytral dövlət statusunu tanıyır, ona hörmət edir və zəmanət verir, həmçinin beynəlxalq səviyyədə bu statusa riayət olunmasını təmin etməyi öhdəsinə götürür. Zəmanətçi ölkələrin siyahısı müqavilənin preambulasında verilmişdir, o cümlədən Böyük Britaniya, Çin, Rusiya, ABŞ və Fransa. Öz növbəsində, Ukrayna "daimi neytrallığın beynəlxalq hüquqi statusuna zidd fəaliyyət göstərməməyi öhdəsinə götürür".

Keçən iyun ayında The New York Times, İstanbul razılaşması layihəsinin razılaşdırılmış və razılaşdırılmamış bəndləri ilə tam mətnləri olduğunu iddia etdiyi şeyi dərc edib. Razılaşdırılmamış tələblər arasında Ukraynada rus dilinin rəsmi dil kimi tanınması və Krımın Rusiyanın bir hissəsi kimi tanınması olub.

Vladimir Putin hamını İstanbula necə göndərdi

Moskvanın təklifinə reaksiya verən Ukrayna prezidenti Vladimir Zelenski deyib ki, Kiyev danışıqlar prosesinin bərpası üçün ilkin şərt kimi 30 günlük dərhal atəşkəs tələbini ləğv etmir. "Biz sabah tam və davamlı atəşkəsin diplomatiya üçün lazımi zəmin yaradacağını gözləyirik. Mən Putini cümə axşamı Türkiyədə gözləyəcəm. "Şəxsən özüm", - Zelenski bazar günü, mayın 11-də Telegram kanalında yazıb.

Mayın 12-dən etibarən 30 günlük atəşkəs elan edilməsi ilə bağlı Moskvaya ünvanlanan tələb ötən şənbə Böyük Britaniya, Almaniya, Fransa və Polşa liderlərinin Kiyevə səfəri zamanı razılaşdırılıb. Bundan sonra ABŞ prezidenti Donald Trampla telefonla danışan Fransa prezidenti Emmanuel Makron bildirib ki, Ağ Ev rəhbəri guya 30 günlük atəşkəsin prioriteti ilə bağlı Avropa-Ukrayna təşəbbüsünü dəstəkləyib. Makronun sözlərinə görə, bu, Ukrayna və Qərbin Moskvaya təqdim etdiyi ortaq mövqe sayıla bilər.

Bazar ertəsi Böyük Britaniya, Almaniya, Fransa, Polşa, ABŞ və Ukraynanın diplomatik nümayəndəliklərinin rəhbərləri telefonla aktiv məsləhətləşmələr aparıblar. Onların məqsədi Kiyevin ilkin şərt olmadan mayın 15-də danışıqlara başlamaq üçün Moskvanın təklifini qəbul edib-etməməsi və ya Rusiyanın 30 günlük atəşkəslə dərhal razılaşmağa razılıq verməməsinin İstanbul 2.0-ın baş tutmaması üçün kifayət qədər əsas sayıla biləcəyi kimi əsas məsələdə ortaq mövqe üzərində razılığa gəlmək idi.

Donald Tramp Vladimir Putini dəstəkləyir

Fransanın xarici işlər naziri Benjamin Haddad bazar ertəsi bildirib ki, 30 günlük atəşkəsin əldə edilməsi Rusiya-Ukrayna danışıqlarının bərpası üçün "ilkin şərt" olaraq qalır. "Mövqeyimiz çox aydındır: biz sülh istəyirik, danışıqlar istəyirik. Bunun ilkin şərti, əlbəttə ki, atəşkəs əldə etmək, havada, dənizdə və quruda 30 gün ərzində qeyd-şərtsiz atəşkəs əldə etmək imkanıdır ki, bu da danışıqlar üçün yer yarada bilər", - fransalı diplomat qeyd edib.

Moskva dərhal atəşkəslə razılaşmasa, Avropa ölkələri ona qarşı növbəti sanksiyalar paketi tətbiq edəcəklərini vəd ediblər. Buna cavab olaraq Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd edib ki, Rusiya ilə ultimatum dili ilə danışmaq olmaz. Türkiyənin xarici işlər naziri Hakan Fidan mayın 15-də danışıqların başlanmasına hələ zəmanət verilmədiyini etiraf etsə də, iki barışmaz mövqeyi birləşdirməyə cəhd edib. "İnanıram ki, yaxın günlərdə tərəflər kompromis axtarmaq üçün bir araya gələcəklər. İndi Ukrayna tərəfi əvvəlcə atəşkəsə, sonra danışıqlara ehtiyac olduğunu bəyan edir, Rusiya tərəfi isə danışıqlara, daha sonra atəşkəsə ehtiyac olduğunu bəyan edir. Biz tərəflərin bir araya gəlməsini və atəşkəsi təmin etməsini istəyirik. Ümid edirik ki, bu istiqamətdə işimiz Ankarada aparılır".

V.VƏLİYEV

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının 28 aprel 2024-cü il tarixli 05-ÜY/25 nömrəli qərarı ilə təsdiq edilmişdir.

(imza, möhür)
Əyyubov Arif Vahid oğlu
Ümumi Yığıncağının adından

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti BonaFide Law Firm Closed Joint-Stock Company Azerbaijan Republic

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin

2024-cü il üzrə

İllik İdarəetmə Hesabatı

BAKI – 2025

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin 2024-cü il üzrə İllik İdarəetmə Hesabatı

Bakı şəhəri 28.04.2025-ci il

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "**Emitent**") bu hesabatı "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 75.3.2-ci və Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 03 fevral 2016-cı il tarixli 10q nömrəli Qərarı ilə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydaları"na uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyəti;
   Emitentin qısaldılmış adı: "BONAFİDE" QSC;
   Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1305656601
   Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 03.09.2018, 1305656601.

2. Emitentin hüquqi ünvanı: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun, ev 83, World Business Center, Ofis 4/3.
   Emitentin olduğu yer: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun, ev 83, World Business Center, Ofis 4/3.

3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında aşağıdakı dəyişikliklər olmuşdur:
   3.1. Emitent 03.09.2018-ci il tarixdə "MM AND PARTNERS" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN: 1305656601) dövlət qeydiyyatına alınması ilə yaradılmış;
   3.2. 02.10.2020-ci il tarixdə adı "BONAFİDE LEGAL SERVİCES" Məhdud Məsuliyyətli Cəmiyyətinə dəyişdirilmiş; və
   3.3. 18.10.2021-ci il tarixdə adı və təşkilati-hüquqi forması dəyişdirilərək "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmişdir (yenidən təşkil olunmuşdur).

4. Emitentin 2024-cü il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.

5. Emitentin 2024-cü il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.

6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.

7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:
   7.1. Hüquq xidmətlərinin göstərilməsi.

8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.

9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:
   9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
   9.2. Müxtəlif məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
   9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrasına nəzarət edilməsi, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı məsələlər üzrə hüquqi yardımın göstərilməsi;
   9.4. Azərbaycan Respublikasının cinayət, mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.

10. Emitentin 10 nəfər işçisi vardır. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:
    11.1. Cəmiyyətin təkbaşçı direktoru: Əyyubov Arif Vahid oğlu

12. Emitentin fiziki şəxs olan 2 səhmdarı mövcuddur. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

Səhmdarın Soyadı, Adı və Atasının adı	Qiymətli Kağızların Növü	Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı	Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti
Mahmudova Səbinə Nəcəf qızı	adi adlı sənədsiz	50	50% (əlli faiz)
Sadıxov Cahangir İsmayıl oğlu	adi adlı sənədsiz	50	50% (əlli faiz)

14. Nizamnamə kapitalında Emitentin payı 5 faizdən az olmayan hüquqi şəxslər haqqında məlumat:
    14.1. Emitentin hər hansı digər hüquqi şəxsin kapitalında 5 faizdən az olmayan payı mövcud deyil.

15. Emitentin səhmdarlarının 2024-cü il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:
    15.1. 2024-cü il ərzində Emitentin səhmdarlarının 2 (iki) ümumi yığıncağı keçirilmişdir:
    15.1.1. Emitentin səhmdarlarının 1-ci ümumi yığıncağı 31.01.2024-cü il tarixdə Bakı şəhərində keçirilmişdir. Yığıncaqda cəmiyyətin xalis mənfəətinin bölüşdürülməsi haqqında qərar qəbul edilmişdir.
    15.1.2. Emitentin səhmdarlarının 2-ci ümumi yığıncağı 25.04.2024-cü il tarixdə Bakı şəhərində keçirilmişdir. Yığıncaqda Emitentin illik maliyyə hesabatlarının təsdiqi haqqında qərar qəbul edilmişdir.

16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:
    16.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;
    16.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi: AZ1001023642, 17.11.2021-ci il;
    16.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin nominal dəyəri 20 (iyirmi) manat təşkil edir;
    16.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;
    16.5. 2024-cü il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2024-cü ildə Emitent tərəfindən səhmlər üzrə 450000 manat dividend ödənilmişdir;
    16.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;
    16.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) AZ1141.

17. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

18. Hesabat dövrü ərzində Emitent tərəfindən adiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

19. Hazırki illik idarəetmə hesabatı Emitentin səhmdarlarının 28 aprel 2025-ci il tarixli növbəti ümumi yığıncağında təsdiq edilmişdir.

(imza, möhür)
Arif Əyyubov
Emitentin direktoru

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti BonaFide Law Firm Closed Joint-Stock Company Azerbaijan Republic

(imza)
Səbinə Mahmudova
Emitentin baş mühasibi

Sadəcə dörd hərf - AİLƏ

Sadəcə dörd hərf - ailə... İki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yolyoldaşı olmağa söz verdikləri an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın yazılmasını bir imza ilə gerçəkləşdirənlər gətirir bu ailəni dünyaya. Birbirinə ömür-gün yoldaşı olmaq istəyənlərin bir qələmlə yazdıqları ailə kitabı, ömür kitabı... Dörd fəsilli bu kitabı vərəqləyərkən öncə təbiətlə insanın vəhdəti gəlir gözlər önünə. İnsanmı təbiəti, təbiətmi insanı yaratmış? Bu, təbii ki, hələ bir sirr olaraq qalmaqdadır. Lakin bu iki varlığın oxşarlığıdır insanı düşündürən. Nə qədər bənzərdir təbiətlə insan... Uşaqlıq ilk bahar, gənclik bahar-yay, orta yaş payız, qocalıq qışdır. Hələ

insan kimi uzunömürlü ola bilən ailələr də təbiətə, onun dörd fəslinə bənzərdir.

Yeni qurulan ailə ilk bahara bənzəyir. Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurd-yuva sahibi olmağa can atır. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da eveşik sahibi olmaları üçün çalışırlar.

Bir azdan baharın ən gözəl çağı - min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü başlayır ailənin. Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisiylə dolan mənzilə yeni nəfəs qatılır. Eveşik, divarlar körpə qoxusu verir. Bu qoxu iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayırıq. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır bizə. "Bir ailəm var, məsuliyyəti tam mənim üzərimdədir" hissi atamızı xatırladır bizə. Sanki babanənələrimizin "ata-ana olmayan bilməz valideyn qədrini" deyimini də məhz bu zaman dərk edirik...

Oğul, qız - fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər. İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək - balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiada qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı, - deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti.

Ailəyə cəmiyyətin kiçik bir parçası deyirik. Bu kiçik qurumda özünü tapanlar cəmiyyətdə də özünü təsdiq edə bilir. Bu, ailə adlı ömrün yay fəslinə bənzəyir. Necə ki, yayın sonuna doğru təbiət bütün barını qoyur ortaya, ailənin də "yay mövsümündə" onun cəmiyyət üçün verdiklərinin "keyfiyyəti" çıxır meydana.

Xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini əks etdirən, özünəməxsus ənənələri ilə nümunə olan ailələrimiz. Bir evin dörd divarı arasında, bir süfrənin başında dostluğu, yoldaşlığı, birliyi, vətənpərvərliyi, etibarı, qənaəti, paylaşmağı aşılayan ailələrimiz. Böyük-kiçik yeri bilməyi, harada oturub-durmağı, harada necə danışmağı öyrədən ailələrimiz.

Ailə dəyərlərimizi dəyərləndirən, "ömrünün" ayrı-ayrı zamanlarında Gümüş, Qızıl, Brilyant toylu-büsatlı ailələrimiz, nə gözəl yaraşır ömrünə hər fəslin öz "donu". Bu donları dəyişdikcə uzanır ömrün, xalqımıza məxsus uzunömürlü ailə modelini yaradırsan evlərimizdə.

Ömrün qış fəsli saçları bəyazlaşdırdıqca bir ömür yolyoldaşı olanların bir-birinə sevgisi, sayğısı daha da artır. Çünki bu yolçuluqdakı maneələri, keşməkeşləri aşmaq, nahamarlıqları qət etmək, payız küləklərinə sinə gərmək əzmi insanları bir-birinə dost edir, ayrılmaz dost... Onları gənc ailələrin nəsihət verəninə, məsləhətçisinə çevirir. Baba-nənə edir. Övladdan da şirin paylı - nəvəli, nəticəli, kötücəli edir. Və bir ömürlük yolyoldaşlarının çatdığı son mənzil neçə-neçə nəsillər sonra da xatirələrdə gözəl bir ailənin ünvanını yaşadır.

Lakin bəzən ömrünün payız fəslini keçib qışa - sona çatmayan ailələrimiz də olur. Dörd fəsli başa vura bilməyən ailələr yarımçıq ömürlü ailələrdir. Təbiətin fəsillərinin ardıcıllığı öz "əlindədirsə", ailənin "dörd fəslini" sıralamaq biz insanların əlindədir. Bütün çətinlikləri aşa biləcək, əzmkar, mübariz insanlarda. Elə isə bir ailənin belə dağılmasına izn verməyək. Qoruyaq, nəyin bahasına olursa-olsun, qoruyaq. Övladlarımızı atasız, anasız qoymayaq. Üzlərindəki sevincin, təbəssümün, gülüşün yerinə öz əllərimizlə kədər, gözyaşı toxumları səpməyək. Çünki zaman bu toxumları cücərtdikcə belə uşaqlar həyatın sərt sillələri ilə qarşılaşmalı olurlar. Tək uşaqlarmı? Xeyr, həm də təklənən qadınlar, kişilər. Bir də yarımçıq ömürlü ailələri özlərinin kədərinə çevirən böyüklərimiz... Elə buradaca böyük şəxsiyyətlərdən birinin gözəl kəlamını xatırlamaq yerinə düşər: - Bütün dünyanı gəzib səadət axtardım, tapmayıb kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş. Bu ev isə yalnız bir ömürdə bir-birinin yolyoldaşına çevrilənlərin ünvanı ola bilər. Səadət dolu ünvan...

Mətanət Məmmədova

Gələcəkdəki təhlükə: SÜNİ İNTELLEKT

2018-ci ilin mart ayında Texasda keçirilən texnoloji konfransda Tesla və SpaceX-in qurucusu olan İlon Mask dünyaya bir xəbərdarlıq verərək "Sözlərimi qeyd edin" dedi, "Süni intellekt nüvə bombalarından daha təhlükəlidir!". Bəs, süni intellektin hansı mənfi və müsbət tərəfləri var? SİA mövzu ilə bağlı araşdırma aparıb.



Süni intellektin zərərləri

- Avtomatlaşdırma sayəsində işsizlik nisbətinin artması
- Artan duyğusuzluq
- İnsanlar tənbəl olurlar
- İnformasiya insanlar üçün əlçatan olduqda, təşəbbüskarlıq, cəsarət və yaradıcılıq azalır.
- Süni intellekt tərəfindən daha çox işlər idarə olunduqca, insanlar getdikcə daha çox mexanikləşir.
- Etik və mənəvi itkilər
- Məxfilik pozuntuları
- Deepfake problemi
- Səhv və ya qeyri-dəqiq məlumatların səbəb olduğu alqoritmik meyl
- Sosial-iqtisadi bərabərsizlik
- Bazar dəyişkənliyi



- Silah avtomatlaşdırılması

Süni intellektin təhlükələri

Süni intellekt təkmilləşdikcə və hər yerdə yayıldıqca, cari və gələcək tələlər haqqında xəbərdarlıq səsləri daha da artır. İstər müəyyən işlərin avtomatlaşdırılmasının artması, istər köhnəlmiş məlumat mənbələrindən qaynaqlanan gender və irqi qərəzlilik, istərsə də insan nəzarəti olmadan işləyən avtonom silahlar olsun, risklər artır.



Yaxınlıqdakı təhlükələr

Biznesin avtomatlaşdırılması

İşin avtomatlaşdırılması çox vaxt ən aktual problem olaraq görülür. İndi məsələ süni intellektin müəyyən iş növlərini əvəz edib-etməyəcəyi deyil, bunun nə dərəcədə olacağıdır. Süni intellektdən istifadə bir çox sənaye sahələrində, xüsusən də işçiləri proqnozlaşdırıla bilən və təkrarlanan tapşırıqları yerinə yetirən sənaye sahələrində artır. 2019-cu ildə edilən bir araşdırmada, pərakəndə satış və bazar analizindən tutmuş istehsal və anbar işlərinə qədər bir çox mövzuda işlərin ən az 70 faizinin süni intellekt tərəfindən yerinə yetiriləcəyi paylaşıldı.

Süni intellekt robotları daha ağıllı və daha bacarıqlı olduqda, eyni vəzifələr daha az insan tələb edəcək. Digər tərəfdən, süni intellektin bu sürətli inkişafı ilə iş həyatında yeni peşələr meydana çıxsa da (məlumat detektivi, IT dəstəkçisi, süni intellektin biznesin inkişafı üzrə meneceri, insan-maşın komandasının meneceri və s.), təhsil və səriştələrində eyni inkişaf tempini göstərə bilmədiyi üçün bir çox vəzifələr insanlar üçün əlçatmaz olacaq.

Məxfilik, təhlükəsizlik və ”Deepfake” yüksəlişi

Əvvəlcə Deepfake haqqında eşitməmişlər üçün izah etmək faydalı olardı. Deepfake, süni neyroşəbəkələrdən istifadə edərək, mövcud təsvir və ya videodakı şəxsin başqa bir şəxsin şəkli ilə əvəz edilməsi təcrübəsidir. Tez-tez, maşın öyrənmə üsullarından istifadə edərək, mövcud media birləşdirilir və mənbə media üzərində örtülür. Bu yolla saxta görüntü hədəf şəkil və ya videoya yerləşdirilir. Deepfake ”dərin öyrənmə” və ”saxta” sözlərindən əmələ gələn mürəkkəb sözdür.

Süni intellektdən zərərli istifadənin rəqəmsal və fiziki təhlükəsizliyə ciddi təhlükə yaratdığına dair bəzi nümunələr:

Dərin saxta məqsədlər üçün olmasa da, sifətin tanınması texnologiyası artıq Çində ofislərdə, məktəblərdə və digər yerlərdə istifadə olunmağa başlayıb. Şirkətlər eyni zamanda bütün ekosferi oxşar texnologiya ilə təchiz etməyi və bütün dünyaya satmağı planlaşdırırlar. Şəkillər üzərində saxtakarlıq edə bilən süni intellekt texnologiyası audio və oxşar faylları da manipulyasiya edə bilir. Təbii dilin işlənməsini əhatə edən süni intellektin alt dəsti olan maşın öyrənməsindən istifadə edərək, hər hansı bir siyasətçinin audio klipi, əslində olmadığı halda, irqçi və ya cinsiyyətçi fikirlər ifadə edirmiş kimi səslənmək üçün manipulyasiya edilə bilər.

Pilotsuz uçuş aparatlarının silahlanması

Süni intellekt həm də hiper-real görünən və real olanlardan ayırd etmək çətin olan sosial media ”şəxsləri” yarada bilər. Artıq heç kim nəyin real, nəyin yanlış olmadığını bilmir. Beləliklə, biz həqiqətən öz gözlərinizə və qulaqlarınıza inana bilməyəcəyiniz naməlum bir dünyaya doğru gedirik.

Gələcəkdəki təhlükələr

Süni intellekt qərəzliliyi və sosial-iqtisadi bərabərsizlik

Süni intellektin səbəb olduğu iş itkisi və artan sosial-iqtisadi bərabərsizlik narahatlıq üçün başqa bir səbəbdir. Təhsillə yanaşı, iş həyatı uzun müddət sosial hərəkətliliyin hərəkətverici qüvvəsi olmuşdur. Bunun səbəbi təkrarlanan iş növü daha çox süni intellekt tərəfindən görülməyə başlayacaq. Çünki insanların bu cür işləri görmək üçün ya daha çox təlimə ehtiyacı olacaq, ya da çətin şərtlər (iqlim şəraiti - soyuq və ya həddindən artıq isti -, yeraltı kimi təhlükəli mühitlər) səbəbindən onları görmək istəməyəcəklər.

Süni intellekt gələcəkdə nə edə biləcək?

Onun növbəti iki onillikdə iqtisadi və məhsuldarlıq artımının əsas sürücüsü olacağı gözlənilir. Ən böyük nümunələr Microsoft və Apple-dır, onlar müxtəlif layihələr üzərində işləsələr də, daha çox Cortana və Siri süni intellekt proqramları üzərində işləyirlər. Onun həyat üçün təhlükə yaradan xəstəlikləri aşkarlaması, bir neçə ay ərzində geniş ərazidə hava şəraitini proqnozlaşdırması və insan övladının rəqəmsal əməkdaşlığa çevrilməsi gözlənilir.

Süni intellekt dünyanı ələ keçirəcəkmi?

Hökumətlər texnoloji inkişafın faydalarına diqqət yetirməyə başlaya bilər, eyni zamanda onun mənfi təsirlərini böyük ölçüdə görməməzliyə vura bilərlər. Siyasət qurucuları bu yeni texnologiyaların riskləri və potensialı barədə aydın anlayışa malik olmasalar, aşağı gəlirli ölkələr xüsusilə həssasdırlar. Statistikaya görə, 2025-ci ilə qədər süni intellekt bazarının 190 milyard dollara çatacağı gözlənilir. 2021-ci ildə koqnitiv və süni intellekt sistemlərinə qlobal xərclər 57,6 milyard dollara çatıb, korporativ tətbiqlərin 75%-i süni intellekt texnologiyalarından istifadə edib. Milli ÜDM baxımından süni intellektin 2030-cu ilə qədər Çini 26,1%, ABŞ-ı isə 14,5% ötəcəyi gözlənilir.

Süni intellektin risklərinin azaldılması

Zərərli süni intellektin təxribata səbəb olmasının qarşısını almağın və ya ən azı orta səviyyədə saxlamağın yeganə yolu müəyyən formada tənzimləmə, bir növ standart tətbiq etməkdir. Süni intellekt layihələrinin təhlükəsiz şəkildə inkişaf etdiyini yoxlamaq üçün fikir və sonrakı nəzarəti olan ictimai qurum olmalıdır. Başqa sözlə, beynəlxalq bir süni intellekt tənzimləyicisi və ya standartları üzrə ali şura. Bu son dərəcə vacibdir.

Yaxud, Stanford Universitetində olduğu kimi, süni intellektin cəmiyyəti zəiflətmək əvəzinə onu gücləndirməsini təmin etmək məqsədi ilə İnsan Mərkəzli Süni Intellekt İnstitutu (HCAI) yaradıla bilər. Bundan əlavə, bu məsələ üçün standart müəyyən edilə bilər. İSO standartları kimi bir standart süni intellektin istifadəsi üçün müəyyən edilə bilər. Bir tərəfdən, biz görməliyik ki, süni intellektin inkişafında geridə qalan hər hansı bir ölkə hərbi, sosial və iqtisadi baxımdan əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətdə olacaq. Gələcəyimiz sosial və kompüter alimlərinin çoxsaylı təcrübələri, yəni multidissiplinar perspektivləri olan insanlarla birgə işləmək bacarığından asılıdır. Bugünkü kompüter elminə əsaslanan modeldə əhəmiyyətli dəyişiklik olmalıdır. Başqa sözlə, informasiya texnologiyaları sahəsində təhsil alan və ya işləyən insanlar sosiologiya, psixologiya, iqtisadiyyat, antropologiya və s. biliklərə malik olmalıdırlar. Onlar digər elm sahələrini də araşdırmalıdırlar. Süni intellektin yaradıcıları etnik mənsubiyyətlər, cinslər, mədəniyyətlər və sosial-iqtisadi qruplar, eləcə də iqtisadiyyat, hüquq, tibb, fəlsəfə, tarix, sosiologiya və kommunikasiya kimi digər sahələr üzrə insanların fikirlərini, təcrübələrini və narahatlıqlarını araşdırmalıdır. İnsan-kompüter-qarşılıqlı əlaqə, psixologiya və elm və texnologiya araşdırmaları birlikdə aparılmalıdır. Bu əməkdaşlıq tətbiqin həyat dövrü boyunca - başlanğıcdan işə salınana qədər və istifadə miqyasında baş verməlidir.

Ayşən Vəli

İqlim dəyişikliyində insan izi

Əhalinin və istehlak yükünün artması, o cümlədən meşə sahələrinin azalması kimi amillər atmosferdə istixana qazlarının yığılmasını artırır və iqlim dəyişikliyinə səbəb olur. Dünyadakı temperatur statistikası araşdırılanda məlum olur ki, dünyada müşahidə olunan ən isti illər 2000-ci illərdir. Temperaturun yüksəlməsinə səbəb istixana qazları idi, həmin illərdəki proqnozlara görə getdikcə daha da çoxalması qeydə alınacaq və 21-ci əsrdə qlobal iqlim sistemində daha böyük dəyişikliklərə səbəb olacaq. Bu gün məlum olur ki, həmin proqnozlar özünü doğrultdu. Temperaturun və istixana qazlarının artmasında ən böyük amil insan fəaliyyətidir.

1970-2004-cü illər arasında insan fəaliyyəti nəticəsində qlobal istixana qazı emissiyaları 70% artıb. CO2 ən vacib antropogen istixana qazıdır. Antropogen maddə insan fəaliyyəti nəticəsində Yerin sferlərinə daxil olan yeni kimyəvi birləşmədir. Məlumdur ki,

bir çox iqlim prosesləri atmosferin əsas komponentləri tərəfindən deyil, çox az miqdarda mövcud olan bəzi qazlar tərəfindən idarə olunur. Bu qazlardan ən çox yayılmışı karbon qazıdır və kiçik miqdarda istənilən dəyişiklik iqlimə təsir etmək iqtidarındadır. Həmin dövrdə emissiya dərəcəsi 80% artdı və bu artıq həyacan təbilinin çalınması demək idi.

İqlim dəyişikliyinin ən çox müşahidə olunan nəticələrindən olan qlobal istiləşmə və quraqlıq kənd təsərrüfatı sektoru üçün hər gün artan təhlükə yaradır. Ekologiyaya vurduğumuz zərərlərin fərqinə vardığımız gündən bəri həm də onun xilası üçün çalışırıq. Birinci addım kimi ekoloji təmiz məhsullar yetişdirməyə başladıq, beləliklə həm torpağı, həm orqanizmimizi, həm də iqlimi qorumuş oluruq. Lakin ekoloji təmiz məhsul yetişdirmək daha çox məsuliyyət və daha az məhsul əldə etmək demək olduğu üçün məhsuldarlığı süni şəkildə artıran kimyəvi gübrələrə daha çox meyl edirik. Halbuki kənd təsərrüfatında istifadə edilən kimyəvi gübrələrin və pestisidlərin insan sağlamlığına təsiri barədə son illərdə ciddi əsaslandırmalar var.

Kimyəvi maddələrin istifadəsi ekosistemə ciddi ziyan vurur. Bu gübrələrin istifadəsi ətraf mühitə bol miqdarda zərərlo maddələrin atılmasına səbəb olur. Atılan bu maddələr torpaqda şoranlığın artmasına, ağır metalların yığılmasına və suda evtrofikasiyaya səbəb olur. Evtofikasiya su bitkilərinin normadan artıq böyüməsi və daha çox oksigen istifadə etməsi deməkdir, bunun nəticəsində isə suda yaşayan canlılar oksigen çatışmazlığından əziyyət çəkir.

Bundan əlavə, gübrələr vasitəsi ilə atmosferə istixana qazları da atılır. Bunlardan ən təhlükəlisi karbon qazından 300 dəfə daha təsirli olan azot oksidləridir. İstixana qazı emissiyalarının 12%-nə səbəb olan kənd təsərrüfatı sektoru iqlim dəyişikliyinin təsirlərinə də məruz qalır. İqtisadiyyatında kənd təsərrüfatının əhəmiyyətli payı olan ölkələrdə bu problem daha çox müşahidə olunur.

Əgər qədərində istifadə edilsə iqlimə bu qədər təsiri də olmaz gübrələrin. Kimyəvi gübrələr azot, fosfor və kalium kimi mühüm elementləri ehtiva edən müxtəlif formul kimi istehsal olunur və fermerlərə kənd təsərrüfatı sahələrində daha səmərəli məhsul əldə etmək imkanı verir. Ancaq həddindən artıq istifadə ekoloji problemlərə səbəb olur və təbii tarazlığı poza bilir. Ona görə də kimyəvi gübrələrdən şüurlu və balanslı istifadə həm kənd təsərrüfatının səmərəliliyini artırmaq, həm də ekoloji dayanıqlığı təmin etmək üçün vacibdir.

Gübrələmənin ətraf mühitə təsiri torpaqda, suda, havada və məhsulun keyfiyyətində özünü büruzə verir. Gübrələrin ifrat istifadəsi torpağın turşulaşmasına, keyfiyyətinin pisləşməsinə, dolayısı ilə məhsuldarlığın zəifləməsinə, məhsulun keyfiyyətin düşməsinə səbəb olur. Gübrələrin nəzarətsiz istifadəsi nəticəsində torpaqda ağır metallar, zəhərli maddələr arta bilər. Gübrələmə səviyyəsi yüksək olan əkinçilik ərazilərində soğulcanlar, qurdlar və mikroorqanizmlər az gübrələmə olan ərazilərlə müqayisədə az olur. Bu torpaq canlılarının öz funksiyaları var, onların olmadığı ərazilərdə məhsuldarlıqda da azalma müşahidə edilir.

2025-ci ilə qədər dünya əhalisinin 8-10 milyarda çatacağı təxmin edilir. Bu da kənd təsərrüfatı məhsullarına olan tələbatın ildə 3,1% artmasına səbəb olacaq. Kənd təsərrüfatı yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ötən əsrdə qeydə alınmış məhsuldarlığın 60 % və ya daha çox artımı təbii gübrələrin istifadəsi ilə bağlıdır. Daha aydın desək, heyvandarlıqdan əldə edilən təbii gübrələr - peyinlər vasitəsi ilə torpağın məhsuldarlığı artırırlır və bu da dolayısı ilə məhsulun keyfiyyətinə və ekoloji təmizliyinə səbəb olur.

Müasir kənd təsərrüfatı üsulları torpağı çirkləndirir, zərərli gübrələr vasitəsi ilə torpaq, su, atmosfer zəhərlənir. Gübrələmə nəticəsində torpağın şoranlaşması baş verir. Kimyəvi gübrələrdə olan duzlar torpaqda toplanır, torpağın strukturunu poza bilər və bitki köklərinin su qəbul etməsinə mane olur. Başqa bir təhlükə də torpağın turşulaşmasıdır. Bəzi kimyəvi gübrələr torpağı turşulaşdıra və torpağın pH balansını poza bilər. Gübrələr torpaq eroziyasına da səbəb olur. Kimyəvi gübrələrin həddindən artıq istifadəsi torpaqdakı təbii orqanizmləri öldürə və torpağın strukturunu zəiflədə bilir.

Kimyəvi gübrələr torpağın münbitliyini azaldır. Bu gübrələrin davamlı istifadəsi torpağın təbii qida maddələrinin tükənməsinə və yavan qalmasına, məhsuldarlığın zəifləməsinə səbəb olur. Yeraltı suların çirklənməsi də bu gübrələr sayəsində olur. Kimyəvi gübrələr torpağın alt qatlarında toplanır və qrunt sularını çirkləndirir. Kimyəvi gübrələrin həddindən artıq istifadəsi bitki xəstəlikləri və zərərvericilərini artıra bilər. Çünki bu gübrələr torpaqdakı faydalı mikroorqanizmləri öldürür, bu mikroorqanizmlərin hər birinin öz funksiyası var və vəzifələrini yerinə yetirmədikləri üçün torpaqda zərərvericilər artır.

Kimyəvi gübrələr adətən bitkilərin ehtiyac duyduğu əsas qida maddələrini ehtiva edir və bitki böyüməsini dəstəkləmək, məhsuldarlığı artırmaq və ya müəyyən qida çatışmazlığını düzəltmək üçün istifadə olunur. Azotlu gübrələr bitkilərin zülal və xlorofil istehsalı üçün vacib olan azotu ehtiva edir. Azotlu gübrələr xüsusilə yarpaqların və yarpaqların böyüməsini stimullaşdırır. Fosforlu gübrələr enerjinin ötürülməsi, hüceyrə bölünməsi və bitkilərin kök inkişafı üçün lazım olan fosfor ehtiva edir. Fosforlu gübrələr kök və çiçək inkişafını dəstəkləyir deyə bilərik.

Kalium gübrələri bitkilərin su balansını tənzimləmək, xəstəliklərə qarşı müqavimətini artırmaq və ümumi böyüməsini təşviq etmək üçün kalium ehtiva edir. NPK gübrələri isə azot (N), fosfor (P) və kaliumun (K) birləşməsini ehtiva edən tam balanslaşdırılmış gübrələrdir. Bu növ gübrələr bitkilərin ümumi sağlamlığını dəstəkləmək və əsas qida maddələrinin tam təchizatını təmin etmək üçün istifadə olunur. Mikroelement gübrələri isə bitkilərin çox az miqdarda ehtiyac duyduğu dəmir, sink, mis kimi mikroelementləri ehtiva edir. Kimyəvi gübrə növləri kənd təsərrüfatı məhsuldarlığının artırılması və qida çatışmazlığının aradan qaldırılması üçün mühüm vasitədir. Lakin düzgün istifadə edilmədikdə ətraf mühitə təsir göstərə biləcəyi üçün balanslı şəkildə istifadə edilməlidir.

Lalə Mehralı

PCHITAS

“Ailə milli kimliyimizin formalaşmasında mühüm rol oynayan institutdur”

“Azərbaycanda əsrlər boyu milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi yaşadan klassik ailə institutu mövcud olmuşdur. Tarixin bütün mərhələlərində ailələrimizdə qarşılıqlı hörmət, anlaşma və sevgi əsas təməl prinsiplər kimi qorunub saxlanılmışdır. Ailə təkcə sosial bir vahid deyil, həm də cəmiyyətin əsas dayağı, milli kimliyimizin formalaşmasında mühüm rol oynayan institutdur”. Bu sözləri SİA-ya açıqlamasında ”YENİ HƏYAT” Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədr müavini Nailə İsmayılova deyib.

Onun sözlərinə görə, Azərbaycanda əsrlər boyu milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi yaşadan klassik ailə institutu mövcud olmuşdur: ”Tarixin bütün mərhələlərində ailələrimizdə qarşılıqlı hörmət, anlaşma və sevgi əsas təməl prinsiplər kimi qorunub saxlanılmışdır. Ailə təkcə sosial bir vahid deyil, həm də cəmiyyətin əsas dayağı, milli kimliyimizin formalaşmasında mühüm rol oynayan institutdur. Lakin müasir dövrün gətirdiyi yeniliklər, texnoloji inkişaflar və qloballaşmanın təsiri ailə modelində də müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər həyatımıza ”müasir ailə modeli” anlayışını gətirmişdir. Yeni texnologiyaların, xüsusilə sosial şəbəkələrin ailə üzvlərinin münasibətlərinə təsiri danılmazdır. Təəssüf ki, bu təsir çox zaman mənfi istiqamətdə özünü göstərir.

Ailə üzvləri arasında birbaşa ünsiyyətin azalması, diqqətsizlik, paylaşmama və birgə vaxt keçirməyə laqeyd yanaşma kimi hallar ailə münasibətlərində soyumağa və qopmalara səbəb olur. Nəticədə, qarşılıqlı anlayış zəifləyir, ailədaxili münasibətlərdə gərginliklər və problemlər meydana çıxır”.

N.İsmayılova bildirir ki, bütün bunlar ailənin sağlam şəkildə fəaliyyət göstərməsi üçün zəruri olan psixoloji və mənəvi bağların zədələnməsinə gətirib çıxarır: ”Odur ki, müasir cəmiyyətin çağırışları fonunda ailə dəyərlərinin qorunması, klassik ailə institutunun müsbət ənənələrinin yaşadılması və yeni şəraitə uyğun şəkildə möhkəmləndirilməsi vacib vəzifə olaraq qarşıda durur. Lakin müasir dövrün gətirdiyi yeniliklər, texnoloji inkişaflar və qloballaşmanın təsiri ailə modelində də müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər həyatımıza ”müasir ailə modeli” anlayışını gətirmişdir. Yeni texnologiyaların, xüsusilə sosial şəbəkələrin ailə üzvlərinin münasibətlərinə təsiri danılmazdır. Təəssüf ki, bu təsir çox zaman mənfi istiqamətdə özünü göstərir.

Ailə üzvləri arasında birbaşa ünsiyyətin azalması, diqqətsizlik, paylaşmama və birgə vaxt keçirməyə laqeyd yanaşma kimi hallar ailə münasibətlərində soyumağa və qopmalara səbəb olur. Nəticədə, qarşılıqlı anlayış zəifləyir, ailədaxili münasibətlərdə gərginliklər və problemlər meydana çıxır.

Bütün bunlar ailənin sağlam şəkildə fəaliyyət göstərməsi üçün zəruri olan psixoloji və mənəvi bağların zədələnməsinə gətirib çıxarır. Odur ki, müasir cəmiyyətin çağırışları fonunda ailə dəyərlərinin qorunması, klassik ailə institutunun müsbət ənənələrinin yaşadılması və yeni şəraitə uyğun şəkildə möhkəmləndirilməsi vacib vəzifə olaraq qarşıda durur”- deyə o əlavə edib.

Günel Fərzəliyeva

Ali məktəblərdə niyə aşpazlıq ixtisası yoxdur?

“Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda göstərilir ki, təhsil sistemi ümumi, orta ixtisas, ali və əlavə təhsil pillələrindən ibarətdir və bu pillələrin hər biri əmək bazarına uyğun mütəxəssislərin hazırlanmasını təmin etməlidir. Həmin qanunun 13-cü maddəsində ali təhsilin məqsədi ”elmi-nəzəri və ya elmi-pedaqoji hazırlığa malik mütəxəssislərin hazırlanması” kimi müəyyən edilib. Bu hüquqi baza açıq şəkildə göstərir ki, ali məktəblərin funksiyası təməl bilik, tədqiqat və nəzəri hazırlıqla bağlıdır və aşpazlıq kimi sırf peşə yönümlü ixtisaslar bu çərçivəyə uyğun gəlmir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Dövlət Statistika Komitəsinin 2023-cü il üzrə hesabatına əsasən, Azərbaycanda qida və içki sektorunda fəaliyyət göstərən subyektlərin 78%-i mikro və kiçik müəssisələrdir. Bu müəssisələr üçün əsas ehtiyac praktiki bacarığa malik aşpaz və texniki işçilərdir. Lakin ali məktəblər bu tələbi deyil, daha çox sistemli düşünə bilən, tədqiqat qabiliyyəti olan kadrların hazırlanmasını qarşısına məqsəd qoyur. Hazırda ölkədə 30-a yaxın peşə təhsil müəssisəsində aşpazlıq ixtisası mövcuddur və bu tədris proqramları əsasən praktiki bacarıq və texnologiya bilikləri üzərində qurulub. Dünya təcrübəsinə baxdıqda, məsələn, Almaniyada aşpazlıq ”dualist sistem” adlanan peşə təhsil modeli çərçivəsində həyata keçirilir. Bu modeldə tələbə həm məktəbdə təhsil alır, həm də real müəssisədə praktika keçir. Ali məktəblərdə isə yalnız qida texnologiyaları, ictimai iaşənin idarə olunması və qida təhlükəsizliyi sahəsində akademik yönümlü proqramlar mövcuddur. Fransada məşhur ”Le Cordon Bleu” məktəbi belə peşə məktəbi statusundadır, universitet deyil. Yəni heç bir qabaqcıl ölkədə aşpazlıq birbaşa ali təhsil ixtisası kimi təqdim edilmir.

Müsbət tərəfi odur ki, bu sahədə ali təhsil verilsə, nəzəri bazası güclü olan, texnologiya ilə qidanın biokimyası arasında əlaqəni anlayan mütəxəssislər ortaya çıxa bilər. Bu, elmi yanaşma tələb edən yüksək səviyyəli restoranlar və ya sağlam qidalanma ilə bağlı tədqiqat mərkəzlərində faydalı ola bilər. Ancaq bu model yalnız geniş laboratoriya bazasına, təcrübə imkanlarına və elmi-pedaqoji potensiala malik təhsil müəssisələrində reallaşa bilər ki, hazırda ölkədə bu imkan yoxdur. Ən əsası, bu cür kadrlar üçün əmək bazarında real tələb və uyğun maaş da yoxdur.

Mənfi tərəflər isə daha çoxdur. Birincisi, ali təhsilin mahiyyətinin deformasiyası baş verir. İkincisi, ali məktəbi bitirmiş bir gəncin əmək bazarına uyğun maaş və iş gözləntiləri yüksək olur. Ancaq restoranlar və ya iaşə müəssisələri hələ də aşağı əmək haqqı verir, bu isə ali təhsilli bir şəxs üçün həm psixoloji, həm də sosial narazılıq doğurur. Bu, işsizlik və peşə üzrə işləməmə hallarını artırır. Üçüncüsü, ali məktəblərin maddi-texniki bazası bu sahəyə uyğun deyil. Mətbəx, sanitar şərait, texniki avadanlıq, təcrübə laboratoriyası, real praktika bazası olmadan ali səviyyədə aşpaz hazırlamaq yalnız kağız üzərində mümkün görünür.

Əgər bu məsələ ilə bağlı islahat etmək niyyəti varsa, mövcud peşə təhsili müəssisələrinin gücləndirilməsi, modul sisteminin tətbiqi, işəgötürənlərlə əməkdaşlıq, aşpazlıq üzrə beynəlxalq sertifikatların (məsələn, City&Guilds və ya WorldSkills) tanınması və tətbiqi daha effektiv yoldur. Digər tərəfdən, ali təhsil almaq istəyən və kulinariya sahəsində işləmək istəyən gənclər üçün ”gastronomiya menecmenti”, ”qida sənayesi texnologiyaları” və ”turizm üzrə iaşə idarəçiliyi” kimi ixtisasların inkişaf etdirilməsi daha məqsədəuyğundur.

Yekunda, ali məktəblərdə aşpazlıq ixtisasının yaradılması hazırkı hüquqi, iqtisadi və akademik kontekstdə nə məqsədəuyğundur, nə də davamlı inkişaf perspektivinə malikdir. Azərbaycan üçün vacib olan ali məktəblərlə peşə təhsili arasında funksional sərhədi qoruyub saxlamaq, lakin hər iki sistemi əmək bazarının real tələblərinə uyğunlaşdırmaqdır. Aşpaz ali təhsilli deyil, peşəkar olmalıdır. Amma bu peşəkarlığı təmin edən sistemli, dayanıqlı və təcrübəyə əsaslanan bir peşə təhsili sisteminə ehtiyac var. Bunu ali məktəb yox, müasir tələblərə cavab verən peşə məktəbləri həyata keçirməlidir”.

Ayşən Vəli

MÜNASİBƏT

Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb

ELMİN SONU

(XXV YAZI)

İçimizdə bitməyən müharibə: Gizli ordumuz düşmənlərə necə qalib gəlir?

Bu seriyadan olan əvvəlki yazılarımızda insan orqanizmindəki bəzi möhtəşəm möcüzələrdən danışmışdıq. Orqanizmin mövcudluğunu təmin edən əsas həyat mayesi olan qanla bağlı maraqlı məqamları təqdim etmişdik. Bu hissədə də mövzunu davam etdirəcək, həmçinin digər yaradılış texnologiyalarından-bədənimizdəki bəzi biosistemlər haqda danışacağıq.

əvvəli burada

https://sesqazeti.az/news/mia/1252220.html

...Təbii ki, bu hüceyrələrin şüuru yoxdur. Lakin trombositlərin bu ilkin təcili reaksiyası qan axınına böyük ölçüdə maneə törədir. Bu zaman laxtalanma mexanizmi işə düşür. Laxtalanma mexanizminin ən vacib elementlərindən biri fibrinogendir. Normal şəraitdə fibrinogen qanda həll olunmuş halda tapılır. Ancaq bədəndə yara meydana gəldikdə, trombin adlı başqa bir zülal fibrinogen zəncirindəki üç halqadan ikisini kəsir. Bu zülal artıq fibrinogen deyil, fibrindir və bu mərhələdən sonra aktivdir. Fibrinin kəsilmiş səthlərində yapışqan fraqmentlər var. Bu yapışqan parçalar digər fibrinlərin gəlib özlərinə yapışmasına səbəb olur. Fibrin bir-birinə yapışaraq əmələ gələn bu kütlə qan axını dayandırmaq üçün əmələ gələn ilk laxtadır.

Bədəndə bir yara açıldıqda birdən aktivləşən trombin, tapdığı bütün fibrinogenlərin zəncir halqalarını kəsməyə başlayır. Ancaq bu prosedur yaranın yerindən başqa yerdə aparılmamalıdır. Müstəqil hərəkət edərsə, kəsdiyi bütün fibrinlər bir-birinə yapışacaq və dövriyyədə nəzarətsiz laxtalar əmələ gələcək. Bu laxtalar damarların tıxanmasına səbəb olacaq. Bu vəziyyətdə trombini təzyiq altında saxlamaq və lazım gəldikdə dayandırmaq lazımdır.

Burada başqa bir mexanizm işə düşür. Trombini aktivləşdirən zülal: Stuart faktoru. Ancaq Stüart faktoru da nəzarət altında saxlanılmalı və qarşılaşdığı hər protrombini aktivləşdirib trombinə çevirməməlidir. Bu, qan dövranında laxtalanma ehtimalını artırır. Accelerin adlı başqa bir protein Stuart faktorunun fəaliyyətinə nəzarət edir.

Hər hansı bir yarada laxtalanma baş verdikdən sonra yaranın daraldığını görəcəksiniz. Çünki laxtalanma əmələ gəldikdən sonra bir-iki dəqiqə ərzində yığılmağa başlayır və içindəki maye 30-60 dəqiqə ərzində ayrılır. Qan laxtasının büzülməsi laxtalanma hüceyrələrinin aldığı çox gözəl bir tədbirdir.

Trombositlər tərəfindən həyata keçirilən bu prosesdə daralan laxta qan damarlarının cırıq kənarlarını bir-birinə çəkərək bir-birinə daha tez bağlanmalarını təmin edir. Qan laxtalanmasını sürətləndirməyə kömək edir.

Bu möhtəşəm sistem dəqiq riyazi hesablama ilə işləyir. Qanın nə vaxt və hansı sürətlə laxtalanacağını və laxtalanmasını nə vaxt dayandıracağını bilmək lazımdır. Bu mərhələdə antitrombin zülalları işə düşür. Antitrombin qanın laxtalanmasında iştirak edən bütün zülalları bir-bir dayandırır. Yaranın yenidən açılmasının qarşısını almaq üçün fibrin fiksasiya faktoru adlanan zülal laxtanı meydana gətirən fibrinləri sıx bir şəkildə bağlayır və sıxır. Əgər adi gündəlik hərəkətlərimizdə belə gücləndirici amil olmasaydı, yara dərhal açılardı və sağalmaq mümkün olmazdı.

Son mərhələdə yaranın sağalması üçün əmələ gələn laxtanın parçalanması lazımdır. Bu vəzifəni yerinə yetirən zülal plazmindir. Plazmin fibrinlərin arasına girir və onları bir-bir parçalayır, laxtalanmanı pozur. Fibrinlər birləşərək laxtalanma əmələ gətirməyə başlayarkən, plazmin də əmələ gələn fibrinləri kəsməyə başlayır. Ancaq bu iki prosesin vaxtı o qədər mükəmməl yaradılmışdır ki, plazmin fibrini kəsib çıxarmaq üçün işləyərkən yara sağalır. Qan laxtasının əmələ gəlməsində fibrin nə qədər sürətli olarsa, onun plazminlə xaric edilməsi bir o qədər yavaş olur və proseslər tam olaraq lazımi vaxtda başa çatır. Bu prosedurlar tamamlandıqdan sonra dəriniz əvvəlki kimi hamar formasına qayıdacaq.

Burada diqqət çəkən şey bədəndəki bu unikal sistemin mürəkkəbliyidir. Bədəni qorumaq üçün lazım olan bir prosedur üçün görülən tədbirlərin miqyası heyrətləndiricidir. Bu nizam o qədər mükəmməl planlaşdırılmışdır ki, hər bir zülal öz növbəsindən əvvəl işə girmir, ancaq növbəsi gələndə dərhal hərəkətə keçir. Hər zülalın hərəkətini idarə edəcək digər zülallar da bədəndə hazır və gözləyirlər. Hamısı sifariş alan kimi öz vəzifələrinə başlayır və xətasız yerinə yetirirlər. Trombositlər heç vaxt normal toxumalara yapışmır, trombin sürətləndiricidən əvvəl hərəkət etməyə başlamaz, fibrinogen laxtalanmaya başlamaz və plazminin hərəkəti həmişə fibrindən daha yavaş olur. Diqqət etsəniz, bu heyrətamiz dərəcədə mürəkkəb prosesi izah edərkən şüursuz atomlardan bəhs edirik. Şüursuz atomların bütün bu mexanizmlərdə tək bir fermenti belə yaratma gücü yoxdur.

İnsan bədəninin hər bir hissəsi böyük möcüzələrlə doludur. Dərimizin altından başlayaraq bədəninizin hər nöqtəsində hansı möcüzəvi hadisələrin baş verdiyini bilmirik. Bəzilərini nəzərdən keçirək;

- Məsələn, ürəyimizin içində bir generator var və hər hansı səbəbdən o söndükdə, ehtiyat generator işə düşür...

- Nazik bağırsağımızdakı hüceyrələr, qarşılarından keçən yüzlərlə müxtəlif maddə arasında dəmir atomlarını tanıyıb tuta bilirlər...

- Ətdən olan mədəniz, əti həzm edən turşuları ifraz edərkən özünü həzm etməsinə mane olan xüsusi bir sistemə malikdir...

- Bir yerimiz kəsildikdə ən az 20 ferment qanın laxtalanmasına səbəb olmaq üçün çox xüsusi bir şəkildə aktivləşir...

- Başımızdakı hormon vəzində istehsal olunan bir hormon molekulu ildırım sürətilə ondan uzaqda olan orqanlarımıza çatır və oradakı hüceyrələrə nə edəcəklərini bildirir...

- Barmaqlarımız o qədər həssasdır ki, dünyanı örtəcək qədər böyük bir əlimiz olsaydı, onlara toxunduqda evlə avtomobili fərqləndirə bilərdik. Bədənimizdə dolaşan damarların ümumi uzunluğu 96 min kilometrdir. Bu, dünyanı 3 dəfə dolanmaq üçün kifayət edən məsafədir!

- İnsan gözü o qədər həssasdır ki, əgər Yer düz olsaydı, biz 60 kilometr uzaqdan yanan bir şam görə bilərdik.

- Yetkin bir insan 7 oktilyon atomdan ibarətdir (7.000.000.000.000.000.000.000.000).

- Bir insan saçı 12 ton ağırlığı daşımaq gücünə malikdir!

- İnsan sümüyü qranit qədər möhkəmdir və bir qrup sümük 9 tona qədər çəkiyə tab gətirə bilir. Çəki fərqindən asılı olmayaraq müqayisə edildikdə, beton insan sümüyündən 4 dəfə daha kövrəkdir.

- İnsan beyni kompüter olsaydı, saniyədə 38 katrilyon əməliyyat yerinə yetirə bilərdi. Nəzərə alın ki, dünyanın ən güclü superkompüteri BlueGene bu rəqəmin yalnız mində ikisini təmin edə bilər!

- Hər bir böyrəkdəki təxminən 1 milyon filtr hər dəqiqə 1,3 litr qanı təmizləyir və 1,5 litr sidik ifraz edir.

- Bədənimiz hər saniyə 25 milyon yeni hüceyrə istehsal edir.

- Beynimizdəki neyronlar arasındakı əlaqələrin quruluşu kainatın quruluşuna bənzəyir. Yəni beynimizin kainatdan sonra dizayn edildiyini söyləmək olar!

- İnsanda eşitmə, toxunma, qoxu, dad və görmə ilə yanaşı, daha 15 duyğu var. Ağrı, isti, susuzluq və toxluq bunlardan yalnız bir neçəsidir...

İndi isə gələk əsas məsələyə-100 trilyon canlı varlıqdan ibarət



olan orqanizmimizin düşmənlərə qarşı bitməyən müharibəsinə.

Fərqində belə olmadığımız və adi gözlə görə bilmədiyimiz molekullar bizi yaşatmaq üçün dayanmadan çalışır və sözün əsl mənasında bunun üçün proqramlaşdırılmışdır. Onlar analiz edirlər, qərar verirlər, iş bölürlər, nəzarətli şəkildə hərəkət edirlər və özlərini ağıllı aparırlar, şüurlu davranış nümayiş etdirirlər.

Bədənimizin dərinliklərində hər gün fərqində olmadığımız bir döyüş gedir. Müharibənin bir tərəfi bədəninizə girib ələ keçirməyi hədəfləyən bakteriya və viruslar, digər tərəfi isə bədəni bu düşmənlərdən qoruyan müdafiə hüceyrələridir.

Düşmənlər hədəf aldıqları əraziyə daxil olmaq üçün hücum mövqeyində gözləyirlər və ilk fürsətdə hədəf bölgəyə doğru istiqamət alırlar. Lakin hədəf bölgənin güclü, mütəşəkkil və nizam-intizamlı əsgərləri düşmənlərə asan yol vermir. Döyüş meydanına gələn ilk əsgərlər düşmənləri udaraq onları zərərsizləşdirən faqositlərdir. Amma bəzən müharibənin miqyası bu əsgərlərin imkanlarından kənarda olur. Bu halda döyüşə başqa əsgərlər (makrofaqlar) atılır. Onların aktivləşməsi hədəf bölgədə həyəcan vəziyyətinə səbəb olur və digər əsgərləri döyüş meydanına çağırırlar (Helper T hüceyrələri).

Bunlar yerli "xalqı" çox yaxşı tanıyan əsgərlərdir. Onlar dərhal öz ordusu ilə düşməni ayırd edə bilirlər. Və vaxt itirmədən silah istehsalına cavabdeh olan əsgərlərə (B hüceyrələri) mesaj göndərirlər. Bu əsgərlərin də qeyri-adi qabiliyyətləri var. Onlar düşməni heç vaxt görmədikləri halda zərərsizləşdirə biləcək silahlar istehsal edə bilirlər. İstehsal etdikləri silahları da öz üzərlərində lazım olan yerə aparırlar. Ancaq bu səfər zamanı nə özlərinə, nə də tərəfdarlarına zərər verməmək kimi çətin vəzifənin öhdəsindən gəlirlər.

Sonra zərbə komandaları işə düşür (Qatil T hüceyrələri). Onlar daşıdıqları zəhərli maddələrlə düşmənin ən həssas hissəsinə zərbə endirərək orqanizmi düşməndən qurtara bilirlər. Qələbə əldə edildiyi təqdirdə döyüş meydanına başqa bir əsgər qrupu gəlir (Supressor T hüceyrələri) və bütün digər döyüşçülər qərargahlarına göndərilir. Nəhayət, döyüş meydanına gələn əsgərlər (yaddaş hüceyrələri) vəziyyəti nəzərdən keçirir və düşmənlə bağlı bütün məlumatları yaddaşlarında saxlayırlar ki, yenidən eyni vəziyyətlə qarşılaşdıqda istifadə etsinlər.

Burada bəhs edilən mükəmməl ordu insan bədənindəki müdafiə sistemidir. Təsvir edilənlərin hamısı çılpaq gözlə görülməyəcək qədər kiçik hüceyrələr tərəfindən həyata keçirilir.

Görəsən, bədənlərində bu qədər mütəşəkkil, nizam-intizamlı və mükəmməl bir ordunun mövcudluğunun fərqində olan neçə nəfər var? Nə qədər insan özlərinin ağır xəstəliyə və hətta ölməsinə səbəb ola biləcək mikroblarla əhatə olunduğunu bilir? Həqiqətən də nəfəs aldığımız havada, içdiyimiz suda, yediyimiz yeməkdə və toxunduğumuz hər yerdə insanlar üçün çox təhlükəli ola biləcək mikroblar var. İnsanın özü bütün bunlardan xəbərsiz olduğu halda, bədənindəki hüceyrələr onu ölümlə nəticələnə biləcək bir xəstəliyin pəncəsindən xilas etmək üçün var gücü ilə mübarizə aparır.

Bütün müdafiə hüceyrələrinin bədən hüceyrələri ilə düşmən hüceyrələrini ayırd etmə qabiliyyətinə malik olması, B hüceyrələrinin görmədikləri düşmənləri zərərsizləşdirə biləcək bir silah hazırlaya bilmələri, onları öz bədənlərinə zərər vermədən və ya heç bir bədən hüceyrəsinə toxunmadan lazımi yerə daşıya bilmələri, siqnal alan hüceyrələrin heç bir etiraz etmədən öz işini görmələri, hər birinin nə edəcəyini bilməsi, hər hansı bir problem olmadan öz yerinə qayıtmaları, hüceyrələrin hər hansı bir problemi görməsi, yaddaşında bir problem olmadığı və işində güclü olması... bunlar bu sistemə onun qeyri-adi statusunu verən xüsusiyyətlərdən yalnız bir neçəsidir...

Ardı olacaq

Elçin Bayramlı

SON SƏHİFƏ
SƏS
15 may
2025-ci il

Magistraturaya qəbul üçün nə qədər keçid balı tələb olunur?

EKSPERT ŞƏRH ETDİ

“May ayının 11-də magistraturaya qəbul üçün ikinci mərhələ imtahanı keçirildi. Bu il ikinci mərhələ imtahanında 20.549 nəfər iştirak etmək üçün qeydiyyatdan keçmişdi. Onların böyük əksəriyyəti - təxminən 19.000 nəfəri Azərbaycan bölməsi üzrə idi. Təxminən 1.500 nəfər isə rus bölməsi üzrə imtahan verdi”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert İlqar Orucov deyib.

Onun sözlərinə görə, imtahanların cavablarının nə zaman açıqlanacağını demək Dövlət İmtahan Mərkəzinin səlahiyyətindədir: ”Hesab edirəm ki, Dövlət İmtahan Mərkəzi mümkün olan ən qısa müddətdə müvafiq prosedurları başladıqdan sonra nəticələri elan edəcək. Bu il müraciət edənlərin sayında artım var. Eyni zamanda plan yerlərində də artım müşahidə olunur. Mən düşünmürəm ki, balların aşağı düşəcəyi ilə bağlı indidən hər hansı bir proqnoz vermək doğru olar. Bu barədə yalnız imtahan nəticələri elan edildikdən sonra fikir söyləmək mümkündür. Çünki nəticələr məlum olmadan əvvəl hər hansı fikir bildirmək nə reallığa uyğundur, nə də nəyisə dəyişir. Bu, sadəcə söz xatirinə deyilmiş bir fikir kimi dəyərləndirilə bilər və peşəkar yanaşma hesab oluna bilməz”.

Ziya Hikmətoğlu

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Qubada iki nəfəri elektrik cərəyanı vurub, biri ölüb



Quba rayonunun Əski-İqriq kəndində yerləşən fərdi yaşayış evində iki nəfəri elektrik cərəyanı vurub. SİA xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb. Bildirilib ki, hadisə nəticəsində 2000-ci il təvəllüdlü Əsəd Hüseynquliyev ölüb, 2001-ci il təvəllüdlü Şəmistan Yusubov isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Faktla bağlı Quba Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci maddəsilə (ehtiyatsızlıqdan adam öldürmə) cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Azarkeşlərə görə ”Barselona”nın başı dərddədir...

La Liqa ”El Klasiko”da ”Barselona” azarkeşlərinin təhqiramiz şüarları ilə bağlı məlumatı RFEF Rəqabət Komitəsinə və Zorakılıqla Mübarizə Komissiyasına göndərib. SİA xəbər verir ki, bu barədə La Liqa internet saytında məlumat verilib. Görüş zamanı azarkeşlərin bir sıra təhqiramiz şüarlara yol verdikləri vurğulanır. Matç bitdikdən bir dəqiqə sonra bəzi ”Barselona” azarkeşləri təxminən səkkiz saniyə ərzində ”Real” axmaqları, çempionu alqışlayın” şüarları səsləndiriblər. La Liqa saytının məlumatına görə, bu cür şüarlar həm RFEF İdman İntizamı Məcəlləsində, həm də İdmanda Zorakılıq, İrqçilik, Ksenofobiya və Dözümsüzlüklə Mübarizə Qanununda göstərildiyi kimi qadağan edilmiş və cəzalandırılmalı kimi təsnif edilir.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000